RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 86 (8402) BAZAR, 3 may 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycanın özü qədər əbədi



"Hər bir insan ilk növbədə anasını, vətənini, torpağını, millətini sevməli, bu hisslərlə yaşamalıdır".
Heydər ƏLİYEV

# Xalqına, vətəninə vurğun böyük azərbaycanlı

**Tarixdə ölkəsinin ən çətin anlarında həyatları bahasına olsa belə dövləti qoruyub saxlayan böyük şəxsiyyətlər olmuşdur. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev XX əsr Azərbaycan tarixində milli müstəqillik ideyasını praktik olaraq gerçəkləşdirmiş fenomenal şəxsiyyətdir. O deyirdi: "Mənim əsas silahım sözdür". Bu silah sayəsində Ulu Öndər insanlara özlərinə güvənməyi öyrətdi və xalqı inandırdı ki, Azərbaycanın gələcəyi də, onun iqtisadiyyatı və mədəniyyəti də öz əlindədir. Heydər Əliyevin sülhməramlı daxili və xarici siyasəti sayəsində bu gün ölkəmiz bütün dünyada tanınır.**

Həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr etmiş dahi şəxsiyyətin vətən və xalq qarşısındakı xidmətləri misilsizdir. Azərbaycanda müstəqil dövlət təsisatlarının qurulması, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin yaranması, milli, mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanması, bu dəyərlərin ümumbəşəri ideyalarla daha da zənginləşdirilməsi, ilk milli Konstitusiyamızın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi prosesinin müvəffəqiyyətli həlli məhz Heydər Əliyevin nəhəng tarixi xidmətləridir.

Təsadüfi deyil ki, Ulu Öndərin fəaliyyəti öz miqyası və əhəmiyyəti etibarilə Azərbaycanın hüdudlarından çox-çox kənara çıxıb. Ən nüfuzlu dövlət başçıları, politoloqlar tərəfindən dəfələrlə bəyan edildiyi kimi, Azərbaycanın və böyük türk dünyasının dahi oğlu Heydər Əliyev zəmanəmizin ən yüksək zirvəsində duran tanınmış siyasi xadimlər sırasında öz layiqli yerini tutub. Xalqımızın yaddaşında yaradıcı, qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illəri yaddaşlarda təkcə iqtisadi yüksəliş, təsərrüfatın bütün sahələrinin inkişafı dövrü kimi deyil, həm də elmin, təhsilin, mənəviyyatın, mədəniyyətin misilsiz tərəqqisi illəri kimi qalıb. Məhz həmin dövrdə gələcək müstəqilliyimizin təməl daşları qoyulub, iqtisadi, sosial və mədəni potensialı formalaşıb. 1969-1982-ci illərdə həyatımızın bütün sahələrində köklü islahatlar aparılmış və dəyişikliklər baş vermişdir. Bu nəhəng işlər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir.

Heydər Əliyev fenomeninin ölkəyə uzunmüddətli rəhbərliyinin ən mühüm göstəricilərindən biri də azərbaycançılıq məfkurəsinin, milli ruhun hədsiz yüksəlməsi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında dövlətçilik arzularının və hisslərinin güclənməsi, real siyasi amilə çevrilməsidir.

Ardı 4-cü səh.

## Polşa Respublikasının Prezidenti zati-aliləri cənab Andjey Dudaya

Hörmətli cənab Prezident!

Polşa Respublikasının milli bayramı - Konstitusiya Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən xoş arzularımı və səmimi təbriklərimi çatdırıram.

Ölkələrimiz arasındakı dostluq əlaqələrinin bugünkü səviyyəsi, qarşılıqlı faydalı əməkdaşlığın genişlənməsi məmnunluq doğurur. İnanıram ki, strateji tərəfdaşlıq münasibətlərimiz xalqlarımızın rifahı naminə bundan sonra daha da dərinləşəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, fəaliyyətinizdə müvəffəqiyyətlər, dost Polşa xalqına daim rifah arzulayıram.

Hörmətlə,

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 30 aprel 2020-ci il*

## "Fəxri adlara görə aylıq təqaüdün verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 iyul tarixli 878 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Fəxri adlara görə aylıq təqaüdün verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 iyul tarixli 878 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 609, № 11, maddə 1013; 2007, № 4, maddə 361; 2013, № 8, maddə 975, № 11, maddə 1454; 2018, № 2, maddə 311) 2-ci hissəsindən "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən idarə və təşkilatlarında çalışan" və "həmin idarə və təşkilatların vəsaiti hesabına, digər şəxslərə isə" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncamın 1-ci hissəsi 2021-ci il yanvarın 1-dən qüvvəyə minir.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 1 may 2020-ci il*

## "Fəxr edirik ki, xalqımızın Sizin kimi qayğıkeş Prezidenti var"

Bütün dünyanı bürümüş koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasının qarşısının alınması istiqamətində Prezident İlham Əliyevin atdığı addımlar, əhalinin sağlamlığının qorunması, rifahının yaxşılaşdırılması üçün gördüyü işlər Azərbaycan vətəndaşları tərəfindən böyük rəğbətlə qarşılanır. Vətəndaşlarımız Azərbaycan xalqının bu bəladan xilas olması üçün dövlət başçısının göstərdiyi diqqət və qayğıdan razılıqlarını ona yazdıqları minnətdarlıq məktublarında ifadə edirlər.

AZƏRTAC Prezidentin saytına istinadla dövlət başçısına ünvanlanan məktubların bir qismini təqdim edir.

Cəbrayıl rayonundan Qarabağ müharibəsi veteranı, Əməkdar müəllim **Rəhim Rəhimov** yazır: "Hörmətli cənab Prezident, 1990-cı illərin əvvəllərində Azərbaycana rəhbərlik edən şəxslər ölkəni çətin durumda qoyub qaçdılar. Atanız, Ulu Öndər Heydər Əliyevə xəzinəsi boş, anarxiyanın hökm sürdüyü dövlət miras qalmışdı. Xalq meydanlara xalq-Heydər, Heydər-xalq sədaları ilə çıxdı və nicat tapdı.

Qısa zaman kəsiyində səsimiz yüksək tribunalardan gəldi. Siz Ulu Öndərin yolunu şərəflə davam etdirirsiniz. Siz bu çətin virus dönəmində xalqın yanındasınız. İnanırıq ki, Siz Mehriban xanımla qoşa qanad olub, xalqımızı bu virus burulğanından da çıxaracaqsınız. Xalqı ağuşuna alan qanadlarınız möhkəm, kölgəniz qalın, yolunuz uğurlu olsun! Allah amanında!"

Ardı 2-ci səh.

## *İlham ƏLİYEV:* "Heç kim məsuliyyətdən boyun qaçıra bilməyəcək"

### Prezidentə və xalqa xəyanət edənlər mütləq layiqli cəzalarını alacaqlar

**Korrupsiya bütün dünyanı narahat edən problemdir. Korrupsiyanın mövcudluğu ilk növbədə ümumbəşəri və milli dəyərləri sarsıdır, hüquqi dövlət quruculuğuna mane olur, iqtisadi və sosial inkişafı buxovlayır, cəmiyyətin ehtiyatlarından səmərəsiz istifadə edilməsinə şərait yaradır, aztəminatlı insanlara ziyan vurur. Ona görə də korrupsiyaya qarşı mübarizə demokratik və sivil inkişaf yolu seçmiş hər bir dövlətin qarşıya qoyduğu əsas məqsədlərdən hesab olunur.**

### Şəffaflıq və qanunçuluq daim prioritetdir

Bu gün demokratiya yolunu seçmiş hər bir ölkə bu bəla ilə mübarizə aparır. Amma korrupsiyaya qarşı mübarizədən yalnız o halda danışmaq olar ki, dövlət öz siyasi iradəsini ortaya qoysun və korrupsiyanın qarşısını almaq üçün cəmiyyətin bütün səviyyələrində onunla davamlı mübarizə aparsın. Əgər belə olmazsa, heç bir dövlət cəmiyyəti korrupsiyadan təmizlədiyini iddia edə bilməz.

Ölkəmizdə korrupsiyaya qarşı mübarizə qanunçuluq prinsipləri əsasında həyata keçirilir. Şəffaflığın artırılması, korrupsiyaya şərait yaradan halların aradan qaldırılması və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi korrupsiyaya qarşı mübarizənin əsas prinsipləri kimi təsbit edilib. Korrupsiyaya qarşı mübarizə, bu sahədə görülən tədbirlərin səmərəli davam etdirilməsi, zəruri qanunların qəbul edilməsi, dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, səmərəli nəzarət mexanizmlərinin yaradılması, hüquq pozuntularının aşkar edilməsi və nəticələrinin aradan qaldırılması, yerli özünüidarə orqanlarının, vəzifəli şəxslərin fəaliyyətinin qanuniliyinin, şəffaflığının və səmərəliyinin təmin edilməsi, ümumən bu sahədə ümumi dövlət siyasətinin həyata keçirilməsinin təmin edilməsi məqsədilə "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı (2004-2006-cı illər)", "Açıq hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı", "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı", Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya və onun həyata keçirilməsi ilə bağlı 2007-2011-ci illər üçün Fəaliyyət Planı, "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" icra olunub.

Ardı 5-ci səh.



## AMB-nin maliyyə bazarlarına dəstək tədbirləri qabaqcıl beynəlxalq təcrübəyə əsaslanır

Xəbər verildiyi kimi, Azərbaycan Mərkəzi Bankı (AMB) maliyyə bazarı iştirakçılarının pandemiyadan qorunması istiqamətində requlyativ tətillərin verilməsi, istehlakçıların hüquqlarının qorunması, kredit ekspansiyasına şərait yaradılması, rəqəmsallaşmaya keçidin sürətləndirilməsi və maliyyə inklüzivliyinin artırılmasına dəstək üzrə tədbirləri əhatə edən geniş proqram qəbul etmişdir.

Ardı 8-ci səh.

## Pandemiyanın ikinci dalğası başlaya bilər

### Karantin rejiminin yumşaldılması və müsbət dinamika vətəndaşlarda arxayınlıq yaratmamalıdır

Ölkəmizdə karantin rejimi mayın 4-dən 31-dək uzadıldı və tətbiq olunan məhdudiyyətlərin yumşaldılması haqqında qərar qəbul olundu. Nazirlər Kabineti yanında Operativ Qərargah karantin rejiminin yumşaldılmış formada davam edəcəyini bəyan etdi.

Bəlli oldu ki, bu, xəstəliklə mübarizənin vəziyyətinə adekvat atılan bir yanaşmadır. Məhdudiyyətlərin yumşaldılması mövcud sanitar-epidemioloji vəziyyət, xəstə sayı və yoluxma sürəti əsas götürülərək Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri, Abşeron rayonu və digər regionlar üzrə mərhələ ilə həyata keçirilir. Toy və yas mərasimləri ilə bağlı qadağa və hərbi qulluqçularla yaxınlarının görüşü üçün müəyyən edilmiş məhdudiyyətlər qüvvədə qalır.

Yuxarıda adları çəkilən şəhərlər istisna olmaqla, respublikanın digər bölgələrində və Naxçıvan Muxtar Respublikasında mayın 4-dən etibarən yaşayış yerini SMS icazə ilə, "icaze.e-gov.az" portalında qeydiyyatdan keçməklə, xidməti vəsiqə və ya iş yeri barədə arayış əsasında tərk etmək sistemi ləğv olunur.

### Karantin rejimi yumşaldıldı - ölkə iki kateqoriyaya bölündü

Operativ Qərargahın məlumatında qeyd edilir ki, karantin rejiminin yumşaldılması selektiv yanaşma ilə tətbiq ediləcək. Yoluxma hallarının faiz etibarilə yüksək olduğu Bakı, Sumqayıt, Gəncə və Lənkəran şəhərlərində və Abşeron rayonunda karantindən çıxma yavaş sürətlə, digər ərazilərdə, yəni yoluxmanın minimum olduğu və hətta heç olmadığı yerlərdə yüksək sürətlə həyata keçiriləcək. 65 yaşdan yuxarı şəxslərin evdən çıxmasına icazə məsələsinə dair qərar mayın 11-dən sonra veriləcək.

Beləliklə, ölkə iki kateqoriyaya bölünür və hər birində karantindən çıxma müxtəlif sürətlərlə tətbiq edilir.

Ancaq etiraf etməliyik ki, aprel ayının 27-dən etibarən ölkədə koronavirusa yoluxanların sayının artımı müşahidə olunur. Yəni hazırda ölkədə iki zidd tendensiya qeydə alınır.

Ardı 5-ci səh.

▪ *Özünü, doğmalarını və dostlarını qorumaq:*
▪ *Koronavirusa qalib gəlmək üçün*
**EVDƏ QAL!**
*Biz birlikdə güclüyük!*

## Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

# “Fəxr edirik ki, xalqımızın Sizin kimi qayğıkeş Prezidenti var”

*Əvvəli 1-ci səh.*



Hacıqabul rayonundan **Emil Tahirovun** məktubunda deyilir: “Möhtərəm cənab Prezident. Sizi səmimi-qəlbdən salamlayıram. Ölkəmizdə pandemiya ilə mübarizədə yaxşı nəticələr əldə olunmasına görə Sizə təşəkkür edirəm. Bu nəticələrdə Sizin böyük əməyiniz var. Azərbaycanda təhsilə böyük diqqət göstərilir. Buna görə də Sizə və Mehriban xanıma minnətdarlığımı bildirir, yeni uğurlar arzulayıram. Hər şeyə görə çox sağ olun, əziz Prezidentimiz!”

Ağdam rayonundan məcburi köçkün **Təvəkkül Xuduyev:** “Hörmətli cənab Prezident, mən ölkəmizin dilbər guşələrindən olan Ağdam rayonunda anadan olmuşam. Mənfur ermənilərə görə elimdən, yurdumdan köçkün düşmüşəm. Hazırda dövlət tərəfindən Mingəçevir şəhərində salınmış Yeni Həyat qəsəbəsində yaşayıram. İşsiz kimi qeydiyyatda idim. Xüsusi karantin rejimi ilə əlaqədar heç bir işlə məşğul olmasam da, dövlətimiz məni birdəfəlik ödəmə ilə təmin etdi. Buna, həmçinin koronavirusla mübarizədə həyata keçirilən digər tədbirlərə görə qəsəbəmizin sakinləri adından Sizə minnətdarlığımı bildirirəm. Allah Sizi və xalqımızı qorusun!”

Cəlilabad rayonunun Göytəpə şəhərindən Əməkdar müəllim **Elmira Abbasova:** “Möhtərəm cənab Prezident, bütün dünyada koronavirus pandemiyası ilə mübarizə aparıldığı indiki vaxtda Azərbaycanda yaşamağımız bizim üçün böyük səadətdir. Çünki Avropanın, Amerikanın və Asiyanın inkişaf etmiş dövlətlərini diz çökdürən bu gözəgörünməz bəladan ən az ziyan çəkən ölkələrdən biri Azərbaycandır. Bu isə Sizin müdrik, uzaqgörən və alternativsiz siyasətinizin real nəticəsidir. Əgər vaxtında qabaqlayıcı tədbirlər görməsəydiniz, biz də İtaliyanın, İspaniyanın, Fransanın, ABŞ-ın, İranın və digər dövlətlərin aqibəti ilə üzləşəcəkdik. Bütün bunlara görə xalqımız Sizə və ən yaxın silahdaşınız Mehriban xanıma sonsuz minnətdardır. Cənab Prezident, Siz təkcə Azərbaycanın deyil, bütün türk dünyasının qayğısına qalırsınız. Biz bunu Sizin təşəbbüsünüzlə bu yaxınlarda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfransında əyani şəkildə gördük. Həmin konfransda vəziyyətdən daha az itkilərlə çıxmaq üçün irəli sürdüyünüz dəyərli təkliflər bütün dövlət başçıları tərəfindən yüksək qiymətləndirildi. Sizin kimi müdrik liderin rəhbərlik etdiyi bir ölkənin vətəndaşı olmağımızdan qürur duyuruq. Koronavirus dövründə həyata keçirilən qlobal tədbirlər xalqla iqtidarın birliyini daha da möhkəmləndirdi. Sizin “Biz birlikdə güclüyük!” çağırışınız cəmiyyətdə şüara çevrilərək, insanları bir-birinə daha möhkəm bağladı. Allah Sizi başımızın üstündən əskik etməsin!”

Cəbrayıl rayonundan **Elşən Feziyev:** “Hörmətli cənab Prezident, həqiqətən mən bir vətəndaş olaraq Sizin uzaqgörən siyasətinizin vurğunuyam. Sizin düzgün və vaxtında verilmiş qərarlarınızın nəticəsidir ki, koronavirus pandemiyasından az itkilərlə xilas olmaqdayıq. Çünki biz Sizin hər bir əmrinizə və tövsiyələrinizə canla-başla riayət etdik. Tətbiq edilən xüsusi karantin rejimi ilə bu pandemiya zəncirini uğurla qırdınız və yenidən azad həyatımıza davam etməyə başlayırıq. Cənab Prezident, Azərbaycanı inkişaf etmiş ölkələrdəki vəziyyətlə müqayisə etsək, doğurdan da fəxarət hissi yaradacaq addımlarınızın şahidi oluruq. Dünyanın probleminə çevrilmiş gözəgörünməz düşmənlə mübarizədə Siz daha bir uğura imza atdınız. Buna görə şəxsən öz adımdan və ailəmin adından Sizə uzun ömür, cansağlığı arzulayıram. Biz Sizinlə fəxr edirik. Ulu Öndər Heydər Əliyevin dediyi kimi, “Gün gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq!”

Yardımlı rayonundan **Alıquli Canəliyev** və **Əhmədağa Mirağazadə** yazırlar: “Hörmətli cənab Prezident, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycanı böyük bəladan qurtardığını yaxşı xatırlayırıq. Allah ona qəni-qəni rəhmət eləsin, qəbri nurla dolsun! İndi isə onun layiqli davamçısı kimi Siz Azərbaycan xalqını bu ağır xəstəlikdən qurtarmaqdasınız. Siz vədlərinizi öz işinizlə sübut etdirirsiniz. Hər bir azərbaycanlı Sizin üçün insan amilindən yüksək bir amalın olmadığını dərk edir. Cənab Prezident, Siz çox uzaqgörən, humanist, müdrik və alicənab insansınız. Tutduğunuz bu haqq yolunda Sizə uğurlar arzulayırıq. Bizə olan bu qayğı və diqqətə görə Sizə Yardımlı rayonunun Sırıq və Tilə kəndlərinin ağsaqqalları adından dərin təşəkkürümüzü bildiririk. Allah Sizi qorusun! Siz də bizi”.

Bakının Nərimanov rayonundan **Səhrab Mikayılov, Miri Həsənov** və **Səmayə İbrahimova** yazırlar: “Çox hörmətli cənab Prezident, Sizin dünyəvi bəla olan koronavirusla bağlı ölkəmizdə gördüyünüz qabaqlayıcı tədbirlər xalqımızı böyük fəlakətlərdən xilas etməkdədir. Yaranmış bu gərgin vəziyyət tərəfinizdən düzgün qiymətləndirilməklə yanaşı, vətəndaşlarımızın maddi vəziyyəti də nəzərə alındı. Biz sadə vətəndaşlar fəxr edirik ki, xalqımızın qeydinə qalan, onun sağlamlığını hər şeydən üstün tutan Sizin kimi Prezidentimiz var. Cənab Prezident, gördüyünüz və görəcəyiniz işlərə, fədakar əməyinizə görə Nərimanov rayonunun təqaüdçüləri adından Sizə dərin təşəkkür edir və böyük Allahdan cansağlığı, ailə səadəti arzulayırıq”.

Bakı şəhərinin sakini **Rəfiqə Kərimli:** “Möhtərəm cənab Prezident, mən bu məktubu Sizə qürurdan doğan göz yaşları ilə yazıram. Ölkəmizin belə bir çətin günündə, sadəcə, öz peşə borcumuzu yerinə yetirərək xalqımıza, dövlətimizə lazımlı olduğumuzu düşünərək qürur hissi keçirirəm. Artıq 25 gündür karantin rejimində işlədiyimizə görə evimizə, ailəmizin yanına gedə bilmirik. Dünən oğlumun ad gününü birlikdə keçirə bilmədik. Ancaq Heydər Əliyev Fondu bizi tək qoymadı, oğlumu ən gözəl hədiyyələrlə təbrik etdi. Bu, mənim və ailəm üçün ən unudulmaz ad günü oldu. Mən oğlumu təbrik edə bilməsəm də, Sizlərin sayənizdə, Heydər Əliyev Fondunun, “Regional İnkişaf” İctimai Birliyinin sayəsində sosial şəbəkələrdən oğlumun ad gününü minlərlə insan təbrik etdi. Bu, məni o qədər təsirləndirdi ki, Sizə məktub yazaraq minnətdarlıq etməyi özümə borc bildim. Həmçinin Mehriban xanıma demək istəyirəm ki, Siz gözəl ana, şəfqətli insan, örnək xanım, əsl ziyalı, çarəsizlərin ümid yerisiniz. Xalq və biz ziyalılar, cənab Prezident Sizi və Mehriban xanım Əliyevanı həmişə öz himayəçimiz kimi görür, sevir, dəstəkləyir. Daim arxanızdayıq”.

Qazax rayonunun Yuxarı Salahlı kəndinin sakini **Ruslan Vəliyev:** “Möhtərəm Prezident, cənab Ali Baş Komandan, ilk növbədə, qeyd etmək istəyirəm ki, mən bir Azərbaycan gənci olaraq Sizin yürütdüyünüz məqsədyönlü siyasəti bəyənir və dəstəkləyirəm. Təəssüf ki, 2020-ci ildə dünyamız, doğma Vətənimiz, canımız Azərbaycanımız böyük bəla ilə üzləşdi. Lakin Sizin və hörmətli Mehriban xanımın qətiyyətli qərarları ilə ölkəmiz bu bəladan da üzüağ çıxmaqdadır. Əminəm ki, apardığınız müdrik siyasət sayəsində biz gənclər yenidən ölkəmizin uğurlu gələcəyi olacağıq. Mən Sizə və hörmətli Birinci vitse-prezidentimizə Azərbaycan gənci kimi dərin təşəkkürümü bildirirəm. Allah Sizə və Birinci vitse-prezidentimiz Mehriban xanıma cansağlığı versin. Allah Sizi qorusun! Biz birlikdə güclüyük!”

Salyan rayonunun Kərimbəyli kəndindən **Aqil Fətiyev, Orxan Hüseynov, Humay Vəliyeva, Səbinə Əkbərova** və **Fərəhman Mahmudov** dövlət başçısına ünvanladıqları məktubda qeyd edirlər: “Çox hörmətli cənab Prezident, bu gün dünyanın böyük bir bəla ilə üz-üzə qaldığının şahidiyik. Dünyada qlobal pandemiya hesab olunan koronavirus (COVID-19) infeksiyasının ölkəmizdə yayılmasının qarşısının alınması və vətəndaşlarımızın təhlükəsizliyini təmin etmək məqsədilə verdiyiniz qərarlar, gördüyünüz təxirəsalınmaz tədbirlər, ən əsası, Sizin çağırışınız ətrafında xalqımızın həmrəyliyə dəvət olunması çox mühüm təşəbbüs və addımlardan oldu. Cənab Prezident, Siz hər zaman vətəndaşların yanında olub onların sevincinə də, kədərinə də şərik çıxmısınız. Biz Azərbaycan xalqı olaraq inanırıq ki, Sizin rəhbərliyinizlə bu çətin günlərdən də alnıaçıq çıxacağıq. Yaşlı nəslin nümayəndələri olaraq dövlətimiz tərəfindən bizə göstərilən qayğıya görə Sizə minnətdarıq. Siz xalqımızı qoruyursunuz, Allah da Sizi qorusun!”

Ucar şəhərinin sakinləri **Hamiz Maxsudov** və **Xəzər Ələsgərov** yazırlar: “Hörmətli cənab Prezident, Azərbaycan xalqının sağlamlığı, sosial rifahı üçün göstərdiyiniz fədakarlıqları biz ucarlılar çox yüksək qiymətləndiririk. Sizin məqsədyönlü işləriniz, vaxtında görülən tədbirləriniz hesabına biz böyük bir çətinliyi dəf etməkdəyik. Bütün dünyaya sübut etdiniz ki, biz hər bir işdə olduğu kimi, koronavirusla mübarizədə də doğru yolla getdik. Uğurlu yol seçmək və bu yolla inamla addımlamaq böyük bacarıq və qətiyyət tələb edir. Çox şadıq ki, bunların hamısı Sizdə cəmləşib. Cənab Prezident, Sizi dəstəkləyir, Sizə uzun ömür, cansağlığı arzulayırıq. Siz Azərbaycan xalqının fəxrisiniz”.

# Biləsuvarda torpaqları əllərindən alınan ailələrin Prezidentə ünvanlandıqları müraciətlər nəzarətə götürülüb

Biləsuvarda torpaqları əllərindən alınan ailələrin bu günlərdə Prezident İlham Əliyevə ünvanlandıqları müraciətlər nəzarətə götürülüb. Müraciətdə 12 ailənin əkin-biçinlə məşğul olduğu 50 hektar torpaq sahəsinin keçmiş icra başçısı tərəfindən zəbt edildiyi bildirilib. Həmin ailələrin üzvləri Prezidentdən torpaqlarının geri qaytarılmasına kömək göstərilməsini xahiş ediblər. AZƏRTAC xəbər verir ki, müraciət ünvanlandıqdan sonra Prezidentin köməkçisi Anar Ələkbərov onlarla əlaqə saxlayıb, məsələnin araşdırılacağını bildirib.

Beş ildir torpağını əkib-becərə bilmədiyini söyləyən Biləsuvarın Çaylı kəndinin sakini Vaqif Abışov deyib ki, 50 hektar torpaq sahəsini 25 illik müqavilə əsasında 1998-ci ildə alıb. Həmin ildən də 12 ailə burada əkin-biçinlə məşğul olub. Lakin 2012-ci ildən torpaq üstündə mübahisələr baş qaldırıb. Bir müddət ona təzyiqlər də göstərilib. Beləliklə, uzun çəkişmələrdən sonra torpaq qanunsuz olaraq başqa şəxslərin adlarına sənədləşdirilib. Bu barədə dəfələrlə yerli icra orqanlarına müraciət etdiyini deyən kənd sakini hər hansı müsbət cavab ala bilmədiyini vurğulayıb. Hazırda həmin torpaq sahəsində taxıl əkilib.

“Rayon icra hakimiyyətinin keçmiş başçısı Mahir Quliyevin qanunazidd əməlləri ifşa olunduqdan sonra Prezidentimizə müraciət etdik. Müraciətimiz dərhal nəzarətə götürüldü. Prezidentin köməkçisi Anar Ələkbərov mənimlə əlaqə saxlayaraq müraciətimizin qanun çərçivəsində araşdırılacağını bildirdi. Həmin zəngdən sonra sevincimizin həddi-hüdudu yoxdur. Bu diqqət bir daha göstərir ki, Prezident hər bir vətəndaşın probleminə xüsusi həssaslıqla yanaşır. Əminəm ki, məsələ tezliklə öz həllini tapacaq”, - deyə Vaqif Abışov bildirib.

Məmur özbaşınalığından şikayət edən Çaylı kəndinin digər sakini Rəhim Kərimov da həmin 50 hektar torpaq sahəsində əkin-biçinlə məşğul olan 12 ailədən birinin başçısıdır. O deyib: “Keçmiş icra başçısı tərəfindən mənimsənilən 50 hektar torpaq sahəsinin 5 hektarı bizim ailəyə məxsus olub. Uzun illər bu torpaqdan qazanc əldə etmişik, ailəmizi dolandırmışıq. Həmin 5 hektar sahədə pambıq, taxıl, həmçinin bostan bitkiləri əkib becərmişik. Lakin Mahir Quliyev qeyri-qanuni yolla torpağımızı əlimizdən aldı. Sağ olsun Prezident İlham Əliyev, ona ünvanladığımız müraciətə operativ cavab verildi. İndi gözləyirik bu məsələ həll edilsin, yenə də əkin-biçin işlərimizlə məşğul olaq”.

Xatırladaq ki, mayın 1-də Prezident İlham Əliyev yeni təyin olunan Baş prokuror Kamran Əliyevi videoformatda qəbul edərkən yerlərdə məmur özbaşınalığından söz açıb, bu məsələyə də toxunub: “Artıq dünən mənə məlumat verildi ki, Biləsuvar rayonunun həbs edilmiş icra başçısı bir neçə insanın torpaq sahəsini əllərindən alıb. Bu vətəndaşlar mənə açıq şəkildə müraciət etmişlər və dərhal göstəriş verildi ki, bu məsələ araşdırılsın. Əgər bu siqnal özünü təsdiqləsə, bu torpaqlar həmin vətəndaşlara qaytarılmalıdır. Ona görə prokurorluq orqanları bu işlərdə fəal olmalıdırlar”.

# Müdafiə naziri döyüş fəaliyyətlərinin aparılmasına hazır olmağı tapşırıb



Mayın 2-də Mərkəzi Komanda Məntəqəsində Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Azərbaycan Ordusunun rəhbər heyəti ilə xidməti müşavirə keçirib. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, eləcə də ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə naziri çıxışında vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən vaxtında və effektiv verilən göstərişlər sayəsində koronavirus infeksiyasının ölkəmizin ərazisində geniş yayılmasının qarşısı alınıb. O bildirib ki, həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində Azərbaycan Ordusunun şəxsi heyəti və mülki personalı arasında bu infeksiyaya yoluxma halları qeydə alınmayıb.

Müdafiə naziri ordu rəhbərliyinin diqqətini son zamanlar düşmənin təxribat hərəkətlərinin aktivləşməsi ilə döyüş fəaliyyətlərinin yenidən başlanması ehtimalının kəskin artmasına yönəldib. Nazir tərəfindən ön xətdə və düşmən müdafiəsinin dərinliyində kəşfiyyatın bütün növlərinin gücləndirilməsi, döyüşə hazır olma planlarının dəqiqləşdirilməsi, qoşunların hərtərəfli təminatı, həmçinin intensiv dərslərin, məşqlərin və təlimlərin keçirilməsinə dair konkret tapşırıqlar verilib.

Nazir bütün səviyyələrdən olan komandirlərdən düşmənin müxtəlif təxribatlarının qarşısının alınması, cəbhənin bütün istiqamətlərində onun aktivləşməsinə qətiyyətlə yol verilməməsi və döyüş fəaliyyətlərinin aparılmasına hazır olmalarını tələb edib.

Müdafiə naziri faşizm üzərində qələbənin 75-ci ildönümü və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş bayram tədbirlərinin yüksək səviyyədə keçirilməsini tapşırıb.

Müşavirənin sonunda Müdafiə naziri silah, hərbi və xüsusi texnikanın yay mövsümündə istismar rejiminə, şəxsi heyətin yay geyim formasına keçirilməsi, eləcə də hərbi qulluqçuların sağlamlığına tibbi nəzarətin gücləndirilməsi və onların təhlükəsizliyinin təmin olunması barədə müvafiq tapşırıqlar verib.

# Ünvanlı sosial yardım üçün müraciət zamanı qeyd edilməsi tələb olunan məlumatların sayı xeyli azaldılacaq

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, aztəminatlı ailələrin ünvanlı dövlət sosial yardımı proqramına əlçatanlığının artırılması üçün növbəti addım kimi, sosial yardım üçün müraciət proseduru daha sadə şəkildə qurulur. Bu məqsədlə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən yeni layihə hazırlanıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, layihəyə əsasən, vətəndaşlar ünvanlı yardım üçün elektron qaydada müraciət edərkən onlardan e-sistemdəki ərizə bəyannamədə qeyd etmələri tələb olunan məlumatların sayı xeyli azaldılacaq.

Müraciət zamanı əməkhaqları, pensiya və müavinətlər, Prezidentin təqaüdləri ilə təmin edilib-edilməmək, məcburi köçkün statusuna malik olma ilə bağlı məlumatların qeyd edilməsi istənilməyəcək.

I və II dərəcə əlillik, kommunal xidmətlərə görə illik xərcin məbləği, işsizlik statusunun olub-olmaması, nəqliyyat vasitəsi ilə bağlı məlumatların da vətəndaşlar tərəfindən daxil edilməsinə ehtiyac qalmayacaq.

Həmçinin ödənişli əsaslarla təhsilalma, xarici ölkədə olma vəziyyəti, fərdi ev və ya mənzilin sahəsi, poçt indeksi kimi məlumatlar vətəndaşlardan istənilməyəcək.

Eləcə də ailə üzvlərinin mobil nömrələri (əks əlaqə vasitəsi üçün telefon nömrəsi istisna olmaqla), onlardan istifadə xərcləri və s. kimi məlumatların qeyd edilməsi tələbi aradan qalxacaq.

Müraciət zamanı vətəndaşlardan istənilməsi tələb olunmayacaq bütün məlumatlar aidiyyəti orqanların elektron informasiya sistemlərindən əldə ediləcək.




Beləliklə, müraciət zamanı qeyd edilməsi tələb olunan məlumatların sayının xeyli azaldılması aztəminatlı ailələrin proqramdan faydalanmaq üçün daha rahat və sadə şəkildə müraciət edə bilmələrinə, onların proqrama əlçatanlığının artmasına imkan yaradacaq.

Qeyd edək ki, son vaxtlar ünvanlı dövlət sosial yardımının əhatə dairəsinin genişləndirilməsi, bu məqsədlə proqramın təyinatının sadələşdirilməsi nəticəsində proqramın əhatə etdiyi ailələrin sayı artıb.

Təkcə son bir ayda ünvanlı yardımı alan ailələrin sayı 12 min (50 min ailə üzvü) artaraq 1 may tarixə 82 mini (342 min ailə üzvü) ötüb. Ünvanlı yardımın hər ailəyə düşən orta aylıq məbləği isə 224 manatdır.

# “İlham ƏLİYEV. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 100-cü kitabı çapdan çıxıb

Nəşrinə 2008-ci ilin dekabrından başlanılan “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyi dövlətimizin uğurlu daxili və xarici siyasətini, ölkəmizin sosial-iqtisadi həyatının müxtəlif sahələrini, beynəlxalq aləmdə mövqeyini, bir sözlə, ən yeni tariximizi əks etdirən və bununla da fəaliyyət istiqamətlərimizi müəyyənləşdirən dəyərli kitablardır.

AZƏRTAC xəbər verir ki, bu günlərdə çoxcildliyin yubiley nəşri - 100-cü kitabı çapdan çıxıb.

## Məqsədə doğru inamlı addımlar

Akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyi müasir həyatımızın güzgüsü, vaxtaşırı müraciət etdiyimiz nəşrlərdir. Birinci kitabda yer almış “Mən dəfələrlə demişəm, çalışacağam ki, Azərbaycan xalqına xidmət edim, Azərbaycan inkişaf etsin, zəngin dövlətə çevrilsin. Azərbaycanda yaşayan hər bir vətəndaş özünü rahat, sərbəst, azad hiss etsin, onun yaşayış səviyyəsi yüksəlsin” fikrini Prezident İlham Əliyev 2003-cü ildə Dövlət Müstəqilliyi Günündə Şəhidlər xiyabanını ziyarət edərkən jurnalistlərin suallarına cavabında söyləmişdi. “İnkişaf - məqsədimizdir” ifadəsinə bu gün milli deyil, qlobal müstəvidən yanaşsaq, görərik ki, çağırışlarla dolu dünyada öz yerini tutmaq istəyən, müasir həyatla ayaqlaşmağa çalışan hər bir ölkə inkişafa can atır. Son 17 ilin salnaməsi olan kitablar ölkəmizin keçdiyi misilsiz inkişaf yolu barədə oxucuda dolğun təsəvvür yaradır, Azərbaycanın inkişafı naminə görülən böyük işlər göz önündə canlanır.

Çoxcildlikdə Prezident İlham Əliyevin hakimiyyəti dövründə ölkəmizin inkişafı, beynəlxalq aləmdə nüfuz qazanması istiqamətində atdığı inamlı addımları - dövlət başçısının keçirdiyi görüşləri əks etdirən materiallar, söylədiyi nitq və çıxışlar, KİV-ə müsahibələri, bəyanatları, məktubları toplanıb.




## Azərbaycanın inkişafının obyektiv mənzərəsi

Əgər “Heydər Əliyev. “Müstəqilliyimiz əbədidir” çoxcildliyində dövlət müstəqilliyimizin bərpasının ilk mərhələsi əks olunubsa, “İlham Əliyev. İnkişaf - məqsədimizdir” kitablarında Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadi inkişafın Azərbaycan modelinin obyektiv mənzərəsi canlanır. Bu kitablar dövlət başçısının uğurlu daxili və xarici siyasəti, Azərbaycanda baş verən sosial-iqtisadi inkişaf, həyata keçirilən inqilabi islahatlar barədə mötəbər məlumat mənbəyi kimi maraq doğurur.

Azərbaycanın son illərdə dünyaya təqdim etdiyi brendlərdən biri “ASAN xidmət”dir.

Prezident İlham Əliyev Kürdəmir rayonuna səfəri çərçivəsində “ASAN xidmət” mərkəzinin açılış mərasimindəki çıxışında bu barədə fikirlərini səsləndirib. Həmin çıxışın yeni kitaba daxil edilmiş mətnində oxuyuruq: “ASAN xidmət” mərkəzləri ölkəmizdə çox ciddi müsbət dəyişikliklərə yol açdı. Bu bizim niyyətimizin, siyasətimizin təzahürü idi. Amma birinci mərkəzlər açılan zaman insanlara elə gəlirdi ki, bu, vətəndaşların rahatlığı üçün sadəcə, bir layihədir, xidmət layihəsidir. O vaxt bir çoxları bəlkə də dərk etmirdilər ki, bu, təkcə layihə deyil, bu siyasətdir, hərəkatdır, bu niyyətdir”.

## Yubiley nəşri 2020-ci ilin yanvar-fevral aylarını əhatə edir

Yüzüncü kitabda Prezident İlham Əliyevin Davos İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfərinin materialları, müxtəlif ölkələrin dövlət və hökumət rəhbərləri, beynəlxalq təşkilatların nümayəndələri və şirkət rəhbərləri ilə görüşləri haqqında informasiyalar toplanıb. Azərbaycan Prezidentinin Davos İqtisadi Forumunun rəsmi saytında dərc edilmiş “Azərbaycanın vahid və dayanıqlı dünyada rolu” sərlövhəli məqaləsini də yubiley nəşrindən oxumaq olar.

Kitaba Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransının növbəti toplantısında iştirak etmək üçün Almaniya Federativ Respublikasına səfəri çərçivəsində keçirdiyi görüşlər haqqında informasiyalar, “Enerji təhlükəsizliyi” mövzusunda “dəyirmi masa”da çıxışının mətni, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrdə iştirakı barədə materiallar daxil edilib.

Kitabda “Qeydlər”, “Şəxsi adlar”, “Coğrafi adlar” göstəriciləri verilib.

“Azərnəşr” tərəfindən buraxılan 100-cü kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# “Torpaq icarəsi haqqında” və “Dövlət əmlakının özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq, “Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1577-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 154; 2001, № 3, maddə 149; 2002, № 5, maddə 241, № 12, maddə 706; 2003, № 1, maddə 14; 2006, № 5, maddə 389, № 6, maddə 478, № 8, maddə 657; 2007, № 8, maddə 745; 2008, № 5, maddə 348, № 12, maddə 1048; 2012, № 6, maddə 503; 2015, № 3, maddə 247; 2018, № 6, maddə 1183; 2019, № 1, maddə 34, № 7, maddə 1178) 5-ci maddəsinin altıncı abzasından “baytarlıq, fitosanitar nəzarəti xidmətlərinin,” sözləri çıxarılsın.

**Maddə 2.** “Dövlət əmlakının özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 580; 2002, № 10, maddə 586; 2005, № 5, maddə 391, № 6, maddə 464; 2006, № 5, maddə 389, № 6, maddə 478, № 12, maddə 1005; 2007, № 8, maddə 745; 2013, № 11, maddə 1314; 2014, № 12, maddə 1524; 2015, № 2, maddə 78, № 11, maddə 1297; 2017, № 12 (I kitab), maddə 2191; 2019, № 2, maddə 180, № 5, maddə 797, № 6, maddə 993, № 8, maddə 1382) 6.2.5-ci maddəsindən “və fitosanitar nəzarəti xidmətləri” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2020-ci il*

# Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 2017-ci il 13 iyul tarixli 3082 nömrəli və “Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 2017-ci il 10 avqust tarixli 3163 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 iyul tarixli 3082 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 7, maddə 1417; 2018, № 11, maddə 2287; 2019, № 5, maddə 909) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı”nın 2-ci hissəsinin altıncı abzası aşağıdakı redaksiyada verilsin:

“Aqrar sahədə tətbiq edilən dəstək tədbirləri ilə bağlı yeni mexanizmin formalaşdırılması, bu sahədə hesabatlılığın, şəffaflığın və büdcə vəsaitlərindən səmərəli istifadənin təmin edilməsi, müraciətlərin sadələşdirilməsi və elektronlaşdırılması məqsədilə pambıq istehsalçılarına Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası”na uyğun olaraq subsidiya verilir.”.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 avqust tarixli 3163 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1558; 2018, № 11, maddə 2287; 2019, № 5, maddə 909) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı”nın 2-ci hissəsinin altıncı abzası aşağıdakı redaksiyada verilsin:

“Bununla yanaşı, ölkədə tütünçülüyün inkişafına dövlət dəstəyinin gücləndirilməsi, bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsi və tütün istehsalı ilə məşğul olan əhalinin sosial rifahının daha da yaxşılaşdırılması məqsədilə tütün emalı ilə məşğul olan hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslərə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası”na uyğun olaraq subsidiya verilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2020-ci il*

# Azərbaycan Respublikası Prezidentinin “Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında” 2014-cü il 16 yanvar tarixli 221 nömrəli, “Bitkiçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2015-ci il 15 aprel tarixli 1175 nömrəli, “Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında” 2015-ci il 19 avqust tarixli 1364 nömrəli, “Azərbaycan Respublikasında ipəkçiliyin inkişafına dövlət dəstəyi haqqında” 2016-cı il 15 sentyabr tarixli 2337 nömrəli, “Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dövlət dəstəyi haqqında” 2016-cı il 22 sentyabr tarixli 2350 nömrəli, “Azərbaycan Respublikasında tütünçülüyün inkişaf etdirilməsinə dövlət dəstəyi haqqında” 2016-cı il 5 oktyabr tarixli 2366 nömrəli və “Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında” 2018-ci il 5 mart tarixli 3747 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. “Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 yanvar tarixli 221 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 34; 2016, № 8, maddə 1384; 2017, № 8, maddə 1521) preambulasının üçüncü abzasının üçüncü cümləsi çıxarılsın.

2. “Bitkiçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 15 aprel tarixli 1175 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 432) 2-ci və 3-cü hissələri ləğv edilsin.

3. “Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 avqust tarixli 1364 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 8, maddə 939) 1-ci hissəsi ləğv edilsin.

4. “Azərbaycan Respublikasında ipəkçiliyin inkişafına dövlət dəstəyi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 sentyabr tarixli 2337 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 9, maddə 1532) 1-ci hissəsi ləğv edilsin.

5. “Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dövlət dəstəyi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 sentyabr tarixli 2350 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 9, maddə 1545; 2017, № 3, maddə 395) 1-ci və 3-cü hissələri ləğv edilsin.

6. “Azərbaycan Respublikasında tütünçülüyün inkişaf etdirilməsinə dövlət dəstəyi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 oktyabr tarixli 2366 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1656; 2017, № 3, maddə 396) 1-ci və 3-cü hissələri ləğv edilsin.

7. “Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 mart tarixli 3747 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 472) 1-ci, 3-cü hissələri və 2.2-ci bəndi ləğv edilsin.

8. Bu Sərəncam 2020-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2020-ci il*

# “Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12, (I kitab), maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311, № 10, maddə 1771, № 11, maddə 1962, № 12, (I kitab), maddələr 2242, 2269; 2018, № 2, maddə 168, № 3, maddə 387, № 5, maddələr 841, 859, 874, № 6, maddə 1190, № 11, maddə 2207, № 12, (I kitab), maddələr 2465, 2516; 2019, № 3, maddə 369, № 5, maddə 790, № 11, maddə 1693, № 12, maddə 1909) 2-ci maddəsində “Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” yubiley medalı.” hissəsindən sonra nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

“Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)” yubiley medalı.”.

**Maddə 2.** “Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** “Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)” Azərbaycan Respublikasının yubiley medalının təsviri” təsdiq edilsin *(əlavə olunur).*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 aprel 2020-ci il*

# Böyük Vətən müharibəsi iştirakçılarının “Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, “Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 17 aprel tarixli 49-VIQD nömrəli Qanununa uyğun olaraq **qərara alıram:**

1. 1941-1945-ci illər Böyük Vətən müharibəsi cəbhələrində döyüş əməliyyatlarında iştirak etmiş, faşist işğalçılarına qarşı gizli mübarizə aparmış, arxa cəbhələrdə çalışmış, həmin dövrdə SSRİ Silahlı Qüvvələrində xidmət etmiş şəxslər “Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilsinlər.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. “Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)” Azərbaycan Respublikasının yubiley medalının və onun vəsiqəsinin hazırlanması ilə əlaqədar tədbirlər görsün;

2.2. yubiley medalı ilə təltif olunacaq şəxslərin siyahısının tərtib edilməsini və medalların təqdim olunmasını təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2020-ci il*

***Azərbaycan Respublikasının 2020-ci il 17 aprel tarixli 49-VIQD nömrəli Qanunu ilə təsdiq edilmişdir***

# “Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)” Azərbaycan Respublikasının yubiley medalı haqqında ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

“Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)” Azərbaycan Respublikasının yubiley medalı ilə 1941-1945-ci illər Böyük Vətən müharibəsi cəbhələrində döyüş əməliyyatlarında iştirak etmiş, faşist işğalçılarına qarşı gizli mübarizə aparmış, arxa cəbhələrdə çalışmış, həmin dövrdə SSRİ Silahlı Qüvvələrində xidmət etmiş Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

“Böyük Vətən Müharibəsində Qələbənin 75 illiyi (1945-2020)” Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

“Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)” Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

***Azərbaycan Respublikasının 2020-ci il 17 aprel tarixli 49-VIQD nömrəli Qanunu ilə təsdiq edilmişdir***

# “Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)” Azərbaycan Respublikasının yubiley medalının təsviri







**Maddə 1. Medalın ümumi təsviri**

“Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)” yubiley medalı bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 42 mm olan səkkizguşəli ulduz formalı lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində, qoşa xətlərlə konturlanmış səkkizguşəli ulduzun üzərində xarici və daxili çevrələr ilə konturlanmış dairəvi lövhə yerləşdirilmişdir.

2.2. Xarici və daxili konturların arasında yuxarı qövs boyunca “QƏLƏBƏ” sözü yazılmışdır, aşağı hissədə qövs boyunca sol tərəfdə palıd, sağ tərəfdə dəfnə çələngi təsvir olunmuşdur.

2.3. Yazı ilə çələnglərin arasında, sol tərəfdə “1945”, sağ tərəfdə “2020” rəqəmləri yazılmışdır.

2.4. “QƏLƏBƏ” sözü ilə rəqəmlərin arasında iki səkkizguşəli ulduz və kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

2.5. Daxili çevrənin içərisində, mərkəzdə, bütün dairə boyu dəfnə çələngi ilə əhatə olunmuş “75 il” sözləri həkk olunmuşdur.

2.6. Bütün yazılar və elementlər relyefli olaraq qabarıqdırlar.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfi hamar səthlidir, üzərində “BÖYÜK VƏTƏN MÜHARİBƏSİNDƏ QƏLƏBƏNİN 75 İLLİYİ (1945-2020)” sözləri yazılmışdır.

3.2. Arxa tərəfin aşağı hissəsində, mərkəzdən sol və sağ tərəflərə doğru sünbül çələngləri təsvir olunmuşdur.

3.3. Medalın arxa tərəfində medalın seriyası və nömrəsi həkk edilir.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün 26 mm x 50 mm ölçülü beşbucaqlı elementi vardır. Elementin üzərinə yuxarıdan aşağı sol və sağ tərəflərə doğru Azərbaycan Respublikası Dövlət Bayrağının rənglərini əks etdirən 25 mm enində xara lent çəkilmişdir.

4.2. Medal elementə 2 halqa və ilgək vasitəsilə birləşdirilir.

4.3 Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 25 mm x 9 mm ölçülü qəlib əlavə edilir.

**1923** *Azərbaycanın özü qədər əbədi* **2020**

*Əvvəli 1-ci səh.*

Ulu Öndərin vətənpərvər fəaliyyətinin nəticəsi olaraq respublikada milli ruhlu ziyalı təbəqəsi formalaşmışdır. Böyük strateq Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, həyata keçirdiyi tikinti-quruculuq tədbirləri, habelə bir neçə onillikdən sonra müstəqillik əldə edəcək respublikamızın gələcəyinə hesablanmış digər məqsədyönlü addımları ilə özünün Ümummilli Lider obrazını yaratmış, tarix isə onun bu statusunu bütün mərhələlərdə qorumuşdur. İlk növbədə, ötən əsrin 60-cı illərinədək aqrar ölkə kimi tanınan və yeganə sənaye mənbəyi neft olan Azərbaycan qısa müddət ərzində yüngül və ağır sənaye respublikasına çevrildi. Bir-birinin ardınca zavod və fabriklər istifadəyə verildi. Nəticədə həm respublikanın iqtisadi imkanları artdı, eyni zamanda yaradılmış yeni işlər əsasında insanların rifah halı daha da yaxşılaşdı.

Xalqımızın döyüş ruhunun yaşadılmasında və gələcəkdə ordu quruculuğunun inkişaf etdirilməsində mühüm rol oynayan Cəmşid Naxçıvanski adına Hərbi Məktəb fəaliyyətə başladı. Respublikamız müstəqillik əldə etdikdən sonra hərbi liseyin məzunları ordumuzun yaranmasında, vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda mübarizədə həmişə ön cəbhədə oldular. Qarabağ döyüşlərində vuruşan Azərbaycan zabitlərinin 70 faizdən çoxu liseyin yetirmələridir.

İndi dünya analitiklərinin böyük önəm verdiyi mədəniyyətin yayılması siyasətini Heydər Əliyev hələ sovet dövründə özünəməxsus tərzdə həyata keçirirdi. Çünki dahi siyasətçi Heydər Əliyev Azərbaycanı dünyada məhz milli dəyərləri, mənəvi tarixi, mədəniyyət özəlliyi ilə tanıdırdı. Məhz onun təşəbbüsü ilə ölkənin tanınmış musiqiçiləri, şairləri, yazıçıları, müğənniləri, bəstəkarları dünyanın ayrı-ayrı ölkələrində çıxış edirdilər. Əlbəttə ki, burada siyasi məqam da var idi, o da Azərbaycanı dünya ölkələri sırasına yüksəltmək ...



# Xalqına, vətəninə vurğun böyük azərbaycanlı

Heydər Əliyevin ölkəyə rəhbərliyi dövrü tarixə siyasi, sosial-iqtisadi və mədəni yüksəliş dövrü kimi daxil olaraq xalqın milli mənlik şüurunun, müstəqillik ideallarının oyanışına güclü təkan vermişdir. Ulu Öndər hələ o dövrlərdən milli inkişafın yeganə yolunu insanların yüksək təhsil almasında, maariflənməsində görmüş, respublikada elmin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. O, yaxşı bilirdi ki, cəmiyyətin tərəqqisinə, elmin, mədəniyyətin inkişafına təsir göstərən ən qüdrətli vasitələrdən biri də təhsildir. Heydər Əliyev şəxsiyyətinin böyüklüyü məhz onda idi ki, o, bütün fəaliyyəti boyu bu sahələrə diqqət və qayğısını əsirgəməmiş, cəmiyyətdə yüksək bilikli, intellektual və elitar təbəqənin formalaşmasına çalışmışdır.

Təsadüfi deyildir ki, 1969-1982-ci illər həm də Azərbaycan elminin, təhsilinin intibah dövrü kimi xatırlanır. Heydər Əliyev öz fəaliyyətində və siyasi təcrübəsində hər zaman elmi fikrin ən yeni, mütərəqqi nailiyyətlərindən faydalanmış, cəmiyyətin inkişafını elmdə, maariflənmədə görmüşdür. Ulu Öndər ötən əsrin 70-80-ci illərində kasıb və imkansız ailələrin övladlarının respublikada və onun hüdudlarından kənarda yüksək təhsil almasına, ixtisaslı kadr kimi yetişməsinə hər cür şərait yaradırdı.

Məlum olduğu kimi, müasir dövrdə qadınların kişilərlə bərabər hüquqa malik olması, yüksək dövlət vəzifələrində çalışması, təhsil alması olduqca vacibdir. Əks təqdirdə qadının idarəetmədə çalışması mümkün deyil. Hələ 1974-cü ildə “Azərbaycan qadını” jurnalının 50 illik yubiley təntənəsində Ulu Öndər Heydər Əliyev demişdi: “Biz çalışmalıyıq ki, ali məktəblərdə və texnikumlarda daha çox qadın təhsil alsın, elmi fəaliyyətlə məşğul olsun. Xüsusən kənddə qadınlar və uşaqlar arasında bədən tərbiyəsi və idmanın daha da inkişaf etdirilməsi problemlərinə biz diqqətimizi xeyli artırmalıyıq”. Heydər Əliyev Azərbaycanla, onun tarixi və bu günü ilə bağlı biliklərin tədrisinə böyük önəm verir və bunu vətənpərvərlik tərbiyəsinin ən mühüm amili hesab edirdi. Bununla əlaqədar Heydər Əliyev demişdir: “...Müstəqil Azərbaycanın hər bir gənci məktəbdə milli təhsil alaraq, öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin. Əgər bunu bilməsə, o, həqiqi vətəndaş ola bilməz. Əgər bunu bilməsə, o, millətini qiymətləndirə bilməz. Əgər bunu bilməsə, o, millətinə olan münasibəti ilə istənilən səviyyədə fəxr edə bilməz”. Ulu Öndərin bu gün də yaşamaqda olan ideya-siyasi konsepsiyasına münasibətimizi təkcə iftixar hissi keçirməklə deyil, həm də bu ideya dünyasını öyrənmək, tədqiq etmək və həyata keçirməklə ifadə etməliyik. Əsas məsələ bu ideyalara sahib çıxan yeni nəslin yetişdirilməsidir.

Tarixi təcrübə təsdiqləyir ki, dövlət müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından daha ağrılı və çətin prosesdir. Belə bir ziddiyyətli və mürəkkəb mərhələdə dövlətin xilası məhz xarizmatik liderlərdən asılı olur. 1991-ci ildə Azərbaycan özünün dövlət müstəqilliyini elan etsə də, bu, əslində, 1993-cü ilin ortalarına qədər formal xarakter daşımışdır. Heydər Əliyevin 1993-cü ilin oktyabrında dövlət başçısı seçilməsindən sonra müstəqil Azərbaycanın hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi daha da sürətlənmişdir. Ümummilli Lider ilk növbədə ölkədə ictimai-siyasi sabitliyin bərpası istiqamətində gərgin iş aparmış, qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirilmiş, respublikamızın sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm amil kimi cəmiyyətdə ictimai-siyasi sabitlik bərqərar edilmişdir. Bütün bunlar həmçinin xalqın öz liderinə inamının, xalq-iqtidar birliyinin nəticəsi idi. Dövlət çevrilişlərinin qarşısı alınmış, Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas olmuşdur. Müstəqil dövlətimizin ərazi bütövlüyünün bərpası və Ermənistan silahlı qüvvələrinin hücumlarının qarşısının alınması, ölkənin müstəqilliyinin qorunub saxlanması üçün ordu quruculuğu istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Heydər Əliyev bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə respublikanın qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməklə dünyanın qabaqcıl dövlətlərinin təcrübəsində sınaqdan uğurla çıxmış, müsbət nəticələri sübut olunmuş inkişaf kursunun Azərbaycan gerçəkliyinə adekvat modelini yaratmışdır. Ulu Öndər qısa müddətdə özəl mülkiyyətçiliyə, sahibkarlığa, sərbəst rəqabətə meydan açan, dövlətsizləşdirməni özündə ehtiva edən, sosialyönümlü mahiyyət daşıyan, habelə xarici iqtisadi əlaqələrin gücləndirilməsi və münbit biznes mühitinin formalaşdırılması yolu ilə ölkəyə investisiya axınını stimullaşdıran liberal inkişaf modelinin praktik surətdə gerçəkləşdirilməsinə nail olmuşdur. “Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst iqtisadiyyat prinsiplərinin bərqərar olması, bazar iqtisadiyyatı və sahibkarlığın inkişafıdır” - deyən Heydər Əliyev demokratik düşüncə və həyat tərzinin bütün dünyada diktə etdiyi bu meyarlara hər zaman sadiqlik göstərmiş, milli inkişaf naminə bu yolun alternativsizliyi fikrinin ictimai rəyə aşılanmasına nail olmuşdur. Ulu Öndər mərkəzi planlaşdırma və bölgü sistemindən sərbəst bazar münasibətlərinə əsaslanan iqtisadi modelə keçid prosesinin aztəminatlı təbəqənin maraqlarına toxunmaması üçün dövlət büdcəsində sosial müdafiə tədbirlərinə geniş yer ayrılmasını da təmin etmişdir. Böyük siyasi xadim Heydər Əliyev hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü çıxışlarında hər zaman vurğulamış, vətəndaşlara göstərilən hüquqi yardımın səviyyəsinin müntəzəm surətdə artırılmasının əsas təşəbbüskarı kimi çıxış etmişdir. Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur. Azərbaycan ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir. Demokratik tələblərə tamamilə cavab verən bu ali sənəd müstəqil Azərbaycanın ilk Konstitusiyası kimi tarixilik qazanmışdır.

1995-ci ildə parlamentə keçirilən ilk seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açmışdır. Bu hadisə dövlət müstəqilliyinin prioritet istiqamətlərini müəyyənləşdirmək və həyata keçirmək yolunda əsas istinad mənbəyi rolunu oynamışdır. Bununla da Azərbaycanın dünya dövlətləri sırasında özünə layiqli yer tutması, beynəlxalq münasibətlərin subyektinə çevrilməsi istiqamətində ardıcıl fəaliyyətin əsası qoyulmuşdur. 1995-1997-ci illərdə Azərbaycan insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur. Ölkənin insan hüquqlarının qorunması sahəsində əldə etdiyi ən mühüm nailiyyətlərdən biri də BMT ilə Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış “İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında” memorandum olmuşdur. Həmin memoranduma əsasən BMT insan hüquqlarını dəstəkləmək və müdafiə etmək sahəsində ümumi biliklərin və potensialın Avropa standartlarına uyğunlaşdırılması, prosedur və hesabatlar sisteminin təkmilləşdirilməsi, mülki cəmiyyətin inkişafı və digər məsələlər sahəsində Azərbaycan Respublikası hökuməti ilə birgə tədbirlər həyata keçirmişdir. 1998-ci il fevralın 22-də Ümummilli Lider Heydər Əliyev “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” fərman imzalamış, insan hüquqları sahəsində həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası səhih şəkildə müəyyən edilmişdir. Bu sənədlə insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır. 1998-ci il iyulun 18-də isə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı” təsdiq olunmuşdur. Dövlət proqramına əsasən Azərbaycanın qoşulduğu konvensiyalara və qəbul etdiyi qanunvericilik aktlarına, eyni zamanda Konstitusiyanın müddəalarından irəli gələn tələblərə müvafiq olaraq insan hüquqlarının müdafiəsi sahəsində görülən işlərin səmərəliliyi daha da artırılmışdır. Ulu Öndərin 1993-cü ildən tətbiqinə moratorium qoyduğu ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərara imza atan ilk ölkə olmuşdur. Yüksək humanizmin və insanpərvərlik örnəyinin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmiş, 2001-ci il yanvarın 25-də müstəqil respublikamız Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edilmişdir. Ulu Öndərin möhkəm təməllər üzərində əsasını qoyduğu balanslaşdırılmış xarici siyasət uzaq hədəflərə hesablanmış strateji fəaliyyət konsepsiyası olmaqla müstəqil Azərbaycanın beynəlxalq arenada nüfuz və mövqelərinin güclənməsinə, ümummilli problemlərinin həllinə yönəlmişdir.

İnamla deyə bilərik ki, bu siyasət 2003-cü ilin oktyabrından Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilir. Ulu Öndər Heydər Əliyevin demokratik dövlətçilik strategiyasını ləyaqətlə davam etdirən Azərbaycan Prezidenti müəyyənləşdirilmiş möhkəm ənənələr üzərində özü də yeni bir dövlətçilik məktəbinin banisinə çevrilmişdir. Prezident İlham Əliyev respublikamızı uğurlu inkişaf yoluna çıxarmaqla Cənubi Qafqaz bölgəsində həyata keçirilən qlobal enerji, kommunikasiya layihələrinin başlıca təminatçısına çevrilmişdir. Xalqa layiqli xidmət andını əməli işi ilə doğrultmuş dövlət başçısı Azərbaycanın iqtisadi inkişaf prioritetlərini dəqiq müəyyənləşdirmiş, hər bir vətəndaşın maraq və mənafeyinin yüksək səviyyədə təminatına yönəlmiş demokratiya kursunu inamla davam etdirmişdir. Respublikamız hazırda inkişafının elə mərhələsindədir ki, qazanılmış makroiqtisadi nailiyyətlər cəmiyyət həyatının ən müxtəlif sahələrində tərəqqi və intibaha, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğuna xidmət edən, hər bir vətəndaşın həyatında kardinal dəyişikliklərlə müşayiət olunan islahatları əzmlə gerçəkləşdirmək imkanı yaradır. Prezident İlham Əliyevin rəhbərliyi ilə inamla irəliləyərək qlobal enerji və kommunikasiya layihələrinin mərkəzinə çevrilən, ümumi daxili məhsulun artım tempinə görə dünyanın lider dövlətləri sırasında yer tutan respublikamızda xalqın inamlı sabahı baxımından strateji əhəmiyyət daşıyan demokratikləşmə prosesinin sürətləndirilməsi xüsusi diqqət mərkəzindədir.

Milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti milli dövlətçilikdir. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli mənəvi dəyərlərin qorunmasına xidmət edir. Milli dövlətin qurulması və dövlətçilik ideyalarının həyata keçirilməsi və bu proseslərin dönməzliyinin təmin edilməsi xalq qarşısında ən böyük xidmətdir. Ümummilli Lider Heydər Əliyev dövlətin inkişafında çoxpartiyalılıq prinsipinin reallaşmasının, vətəndaş cəmiyyətinin inkişaf etməsinin tərəfdarı olub. Lakin o, qeyd edirdi ki, “kim müxalifətdə durursa dursun, ancaq vətəninə, xalqına, mənəviyyatına, məsləkinə müxalifətdə durmasın”. Bu gün Prezident İlham Əliyev də məsələlərə bu prizmadan yanaşaraq bildirir ki, əsas məqsədimiz elə siyasi sistem yaratmaqdır ki, fərqli baxışlardan asılı olmayaraq hər bir siyasi qüvvə üçün bir amal müqəddəs olsun, o da dövlətçilik, müstəqillik, azadlıq, rifah və inkişafdır. Belə olan halda həm siyasi müstəvidə işlər müsbət istiqamətdə gedəcək, eyni zamanda ölkədə mövcud olan problemlər daha tezliklə həll olunacaq. Çünki müxalifət nümayəndələri bəzən iqtidar nümayəndələrinin görmədiyi qüsurları görürlər, onları dilə gətirirlər, onları diqqətə çatdırırlar və bu, çox müsbət haldır. Ancaq, eyni zamanda bir daha demək istəyirəm ki, bütün siyasi qüvvələr üçün bir amal, bir məsələ toxunulmaz olmalıdır, bu da bizim müstəqilliyimiz, dövlətçiliyimiz və dövlət maraqlarıdır.

Ən mühüm məsələlərdən biri də həmin dövrdə ictimai şüurun düzgün istiqamətləndirilməsidir. Əlbəttə ki, burada kütləvi informasiya vasitələrinin böyük imkanları yada düşür. Digər tərəfdən, uşaq, yeniyetmə və gənclərin tərbiyəsində təhsil müəssisələri mühüm yer tutur. Lakin burada verilən biliklə, müəllimlərin öyrətdikləri ilə real həyat arasında uyğunluq, qarşılıqlı tamamlama olmalıdır. Əgər onlar nüfuzlu adamların, vəzifəli şəxslərin, ziyalıların, tanınmış incəsənət və mədəniyyət nümayəndələrinin həyat tərzində müəyyən nöqsanlar, ziddiyyətlər görürlərsə, onun mənfi təsiri daha çox olacaqdır. Axı gənclər əsasən tanınmış adamları özlərinə ideal, kumir seçir, onlara oxşamağa çalışırlar. Bu mənada yaxınlaşan təhlükəni dərk edən Ümummilli Lider Heydər Əliyev milli-mənəvi dəyərlərin qorunması və gələcəkdə törədəcəyi fəsadların aradan qaldırılması məqsədilə deyirdi: “Ölkəmizin ictimaiyyətinin müxtəlif təbəqələrinə mənsub olan şəxslər, bəzi adamlar verilmiş bu azadlıqdan öz şəxsi məqsədləri üçün sui-istifadə edirlər. Ya anlamırlar, ya da anlayaraq bizim xalqımızın mənəviyyatını, əxlaqını və xüsusən də gənclərin əxlaqını pozmağa cəhd göstərirlər”. Ulu Öndər eyni zamanda cəmiyyətdə bərabərsizliyin, xüsusilə də cəmiyyətdə bir qisim insanların asan yolla var-dövlət sahibi olmasının sosial təzadların yaranmasına gətirib çıxardığını qeyd edirdi. O deyirdi: “Bir qütbdə həddindən artıq zənginləşmiş, bəzi hallarda qanunsuz zənginləşmiş, harınlaşmış insanlar və onların övladları eyş-işrət içərisindədir, o biri tərəfdə çadırlarda yaşayan insanlar inildəyirlər, nə qədər əziyyət çəkirlər”. Sözsüz ki, bu paradoksal hadisələr mənəvi həyatımıza təsir göstərir. Lakin istər milli tariximizdə, istərsə də beynəlxalq tarixdə, eləcə də bu günümüzdə elə zəngin insanlar var ki, çox sadə həyat tərzi sürür və var-dövlətlərini millətin inkişafına sərf edirlər. Bu baxımdan Heydər Əliyev insanları yaxşı nümunələri öyrənməyə çağırırdı. Avropada, Amerikada zəngin adamların, böyük biznesmenlərin real həyat tərzinin nə dərəcədə işgüzar, səmərəli və sadə olduğunu yada salırdı. Bizim mətbuat da, televiziya da, bədii ədəbiyyat da bu yaxşı nümunələrin təbliğinə daha geniş yer verməlidir, həqiqətdən uzaq olan, ideoloji və mədəni-mənəvi təxribata xidmət edən bayağı nümunələr efirə yol tapmamalıdır. Bu gün də Prezident cəmiyyətdə narazılıq yaradanlara, eyni zamanda vəzifəsindən sui-istifadə edənlərə qarşı mübarizə aparır.

Hazırda Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli islahatlar Azərbaycan dövlətinin siyasi xarakterini və inkişaf yolunu müəyyən edir. Bu müəyyənləşmə Azərbaycanın qısa müddət ərzində iqtisadi inkişaf göstəricilərinə görə bütün dünyada liderə çevrilməsi faktıdır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi nəhəng layihələrin gerçəkləşməsi, respublikamızın ümumilikdə Avropa regionunun gələcək enerji təhlükəsizliyi missiyasını üzərinə götürməsi xalqımızın dünya arenasında layiqli yerini təmin edir. Azərbaycan insanının gün-güzəranı yaxşılaşır, şəhər, kənd və qəsəbələr abadlaşır, respublikamızda işsizlik, yoxsulluq kimi ağır sosial bəlalar artıq həllini tapır. Bütün bunlarla yanaşı Azərbaycanda demokratiyanın təntənəsi, qanunların aliliyi, haqq-ədalətin zəfəri üçün bütün lazımi tədbirlər reallaşdırılır. Azərbaycanın mövcud iqtisadi potensialının insan kapitalına çevrilməsi istiqamətində atılan addımlar elmi inkişafa doğru sürətli kurs götürüldüyünü təsdiqləyir. Dövlət başçısı həyata keçirdiyi islahatları məhz dahi şəxsiyyət Heydər Əliyevin müəllifi olduğu möhkəm təməl üzərində davam etdirir və yeni dövrün tələblərinə uyğun olaraq daha da zənginləşdirir.

Bütün bunlar tam mənada deməyə əsas verir ki, Prezident İlham Əliyevin dövlətçilik təcrübəsində siyasi varislik ənənələrinin davamı, eyni zamanda mütərəqqi inkişaf meyillərinin gücləndirilməsi ideyası üstünlük təşkil edir.

Biz hər birimiz fəxr edirik ki, bu gün onun yolunu və ideyalarını dünya siyasətçiləri arasında sayılıb-seçilən dövlət xadimi, Prezidentimiz İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva daha da gücləndirirlər. Onların bu fəaliyyəti Heydər Əliyev ənənələrinə, irsinə sədaqəti bir daha təsdiqləyir. Tarix belə dahiləri tək-tək yetirir. Ulu Öndər də nadir şəxsiyyət, fenomenal insan idi. O, bütün fəaliyyəti boyu qabaqcıl və mütərəqqi qüvvələrə arxa, dayaq olmuş, xalqı ardınca aparmışdır. Bütün ömrünü vətəninə, xalqına sədaqətlə xidmətdə görən Ümummilli Liderin xatirəsi hər bir azərbaycanlının qəlbində yaşayacaq və onun “Vətən birdir və hamı bu vətən uğrunda çalışmalıdır!” deyimi hər bir Azərbaycan vətəndaşının həyat amalına çevriləcəkdir.

***Hicran HÜSEYNOVA,***
***Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, siyasi elmlər doktoru, professor***

Yeni nəşrlər

# Sosial-iqtisadi inkişafa gedən 50 illik şərəfli yol

AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Şahbaz Muradovun “Ulu Öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi: tənəzzüldən tərəqqiyə yüksələn 50 illik çətin yolun sosial-iqtisadi nəticələri” adlı fundamental əsərinin nəşr olunması elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir. Kitab Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsinin 50 illiyinə həsr olunmuşdur.




Artıq neçə illərdir ki, Ümummilli Liderin həyat və fəaliyyətinə həsr olunan çoxsaylı məqalələr, kitablar, monoqrafiyalar və s. yazılmışdır. Bu kitabı digərlərindən fərqləndirən cəhət isə onun Ulu Öndərin inkişaf strategiyasının sosial-iqtisadi və demoqrafik aspektlərini əks etdirməsidir. Nəşrdə Ümummilli Liderə həsr olunan dəyərli yazılar öz əksini tapmışdır. Bu yazılarda Ş.Muradov Ulu Öndərin sosial-iqtisadi inkişaf strategiyasını dərindən təhlil etmişdir.

Kitab müəllifin ön sözü ilə başlayır. Burada Azərbaycan xalqının tarixi şəxsiyyətlərinin adları sadalanır və dahi şəxsiyyət Heydər Əliyevin XX yüzillikdə yaşamış Corc Vaşinqton, Franklin Ruzvelt, Şarl De Qoll, Cəvahirləl Nehru, Mustafa Kamal Atatürk kimi şəxsiyyətlərlə bir sırada dayandığı qeyd edilir. Şahbaz Muradov girişdə Ulu Öndərin həyat fəlsəfəsini onun öz sözləri ilə oxucuya çatdırır: “Mənim həyatım xalqa məxsusdur... Həyatımın mənasını xalqa xidmət etməkdə görürəm... Mənim üçün ən yüksək mükafat... xalqın etimadını qazanmaqdan ibarətdir”.

Müəllif kitabda Ümummilli Liderin Azərbaycanda hakimiyyətdə olduğu hər iki dövrü mərhələlərlə araşdırır və onu yüksək qiymətləndirir. Bu, Azərbaycan dövlətinin yaxın tarixinin elmi-nəzəri, fəlsəfi metodologiya işığında, həm də sosial-iqtisadi aspektdə öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşıdığına dəlalət edir. O, qeyd edir ki, Heydər Əliyev ölkənin ən ağır və böhranlı vəziyyət keçirdiyi illərdə Azərbaycana rəhbərlik etmişdir. Birinci - 1969-1982-ci illər, ölkə iqtisadiyyatının bərpası və dinamik inkişafı dövrü, ikinci - 1993-2003-cü illər isə Azərbaycanın “ölüm, ya olum” dilemmasından xilas edilməsi və onun qurtuluş dövrü kimi tarixin yaddaşına həkk olunub. Daha sonra müəllif yazır ki, Heydər Əliyev hər iki halda Azərbaycan xalqının və dövlətinin maraqlarını, mənafeyini müdafiə və təmin edən düzgün siyasi qərarlar qəbul edib həyata keçirməklə onu düşdüyü ağır vəziyyətdən çıxara bilib.

Kitabda müəllif son 50 ildə ölkə iqtisadiyyatında baş verən dəyişiklikləri dolğun statistik məlumatlar əsasında təhlil edib və qiymətləndirib. Burada göstərilir ki, 1971-1985-ci illərdə Azərbaycanın xalq təsərrüfatına 42,2 milyard manat vəsait qoyulmuşdur ki, bu da 1920-1970-ci illəri əhatə edən 50 ildəki vəsaitdən 2,1 dəfə çox olmuşdur. Nəticədə 249 iri sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir.

Ulu Öndərin ölkəyə rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində xalq təsərrüfatı planlarının artıqlaması ilə yerinə yetirilməsi nəticəsində 108 nəfər “Sosialist Əməyi Qəhrəmanı” adına layiq görülmüş, 1007 nəfər “Lenin”, 10 min nəfərdən çox işçi “Qırmızı Əmək Bayrağı”, 1422 nəfər “Oktyabr İnqilabı”, 1153 nəfər isə “Xalqlar Dostluğu” ordenləri ilə təltif edilmişdir.

1993-cü ildə Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkədə iqtisadi islahatların yeni mərhələsi başlayır. Bu islahatlara inflyasiya ilə mübarizə, milli valyuta kursunun sabitləşdirilməsi, ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi və s. daxil idi.

Aparılan islahatlar qısa müddətdə müsbət nəticələrini verdi. Beləliklə də, əsas makroiqtisadi göstərici - ümumi daxil məhsul 1996-cı ildən yüksəlməyə başladı və 1995-ci illə müqayisədə 2003-cü ildə 1,9 dəfə artdı. Müvafiq dövrdə xarici ticarət dövriyyəsi 4 dəfə, dövlət büdcəsinin gəlirləri isə 3,9 dəfə yüksəldi. 1993-2003-cü illərdə isə ölkədə 3 minə qədər yeni sənaye müəssisəsi açıldı. “Əsrin müqaviləsi”nin imzalanması ilə iqtisadi inkişafda yeni bir mərhələ başladı. “Əsrin müqaviləsi” nəinki neft sektorunun inkişafına təkan verdi, həmçinin qeyri-neft sektorunun inkişafı üçün də zəmin yaratdı.

Aparılan islahatlar vətəndaşların sosial vəziyyətinə də müsbət təsirini göstərdi. 1993-2003-cü illərdə əhalinin pul gəlirləri 17,9 dəfə artdı. Ümumiyyətlə, kitabda demoqrafik dəyişikliklər, məşğulluğun təmin olunması, işsizlik səviyyəsinin azaldılması, elmin, təhsilin, səhiyyənin inkişaf etdirilməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi və digər sosial məsələlərdə Ümummilli Liderin rolu ətraflı öyrənilmişdir.

Kitabda həmçinin müəllifin müxtəlif mətbu orqanlarında dərc olunmuş “Heydər Əliyev müstəqilliyimizin banisi və Azərbaycan xalqının əbədiyaşar lideridir”, “Heydər Əliyev təcrübəsinə söykənən iqtisadiyyat”, “Azərbaycan Elmlər Akademiyasının inkişafında Heydər Əliyev mərhələsi”, “Türk dünyasının müdrik ağsaqqalı”, “Böyük mütəfəkkir və Azərbaycan elminin hamisi” və digər yazılar da yer almışdır.

Şahbaz Muradov kitabda Ulu Öndərin elmə, elm adamlarına verdiyi dəyərdən də söhbət açır. Azərbaycan Milli Elmlər Akademiyasının tanınmış elm xadimləri ilə tarixi görüşündə Ulu Öndərin dediyi fikirləri oxucuların diqqətinə bir daha çatdırır: “Şəxsən mən elm xadimlərinə həmişə böyük hörmətlə yanaşmışam... Ona görə ki, elm adamları müstəsna adamlardır. Onlar insana əməksevərliklə, fədakarlıqla və bütün digər keyfiyyətlərlə yanaşı, cəmiyyətdə bu və digər yeri tutmağa imkan verirlər. Elm adamları istedada, məharətə, xüsusi bacarığa malik olmalıdır... Bu insanlar ən böyük hörmətə layiqdirlər”.

Kitabı daha da oxunaqlı edən professor Ş.Muradovun Ulu Öndərlə olan görüşləri haqqındakı qeydləri və fikirləridir. O, yazır ki, tale ona Heydər Əliyevlə dəfələrlə görüşmək şansı verib və bu görüşləri həyatının ən gözəl anları hesab edir.

Kitabın müəllifi görkəmli iqtisadçı-alim, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor Ş.Muradovun böyük elmi fəaliyyətinə kiçik bir nəzər salmaq istərdik. Bu da təsadüfi deyil. Şahbaz Muradov 60 illik yaradıcılığının böyük bir hissəsini Ümummilli Lider Heydər Əliyevin sosial-iqtisadi inkişaf strategiyasının öyrənilməsinə həsr etmişdir. Alimin ən məhsuldar elmi fəaliyyəti dahi insanın hakimiyyəti dövrünə təsadüf edir. Belə ki, Ş.Muradov 1970-ci ildə “Fədakar əməyə görə” medalı ilə təltif olunub. Elə həmin ildə fəxri fərman alıb. 1972-ci ildə 32 yaşında iqtisad elmləri doktoru elmi dərəcəsini, 1977-ci ildə professor elmi adını alıb. 1995-ci ildə Mərkəzi Seçki Komissiyasının, 2001-ci ildə AMEA-nın müxbir üzvü seçilib. 1999-cu ildə AMEA İqtisadiyyat İnstitutunun direktoru təyin edilib.

Şahbaz Muradov bir sıra mühüm dövlət sənədlərinin hazırlanmasında bilavasitə iştirak edib. O, Heydər Əliyevin 28 dekabr 1998-ci il tarixli sərəncamı ilə iki mühüm dövlət sənədinin - “Azərbaycan Respublikasının demoqrafik inkişaf konsepsiyası”nın və “Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı (2004-2008)”nın hazırlanmasına rəhbərlik edib.

Ş.Muradovun bu xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilib. O, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə 2004-cü ildə “Şöhrət ordeni”nə, 2015-ci ildə “Əməkdar elm xadimi” fəxri adına layiq görülüb. Bu qeyd olunanlar bir elm adamının gərgin əməyinin nəticələrinə verilən qiymətdir, dəyərdir. Lakin Ş.Muradov üçün çox əziz olan bir dəyər də var. Bu, Ulu Öndərin onun haqqında dediyi xoş sözlərdir: “...1988-ci ildə Əbdürrəhman Vəzirov Azərbaycana rəhbərliyə göndərildikdən sonra gəlib burada mənim fəaliyyətimə qara yaxmağa başladığı vaxt Moskvada nəşr olunan “Voprosı ekonomiki” adlı çox nüfuzlu jurnalın 6-cı nömrəsində Şahbaz Muradovun məqaləsi çap edilmişdi və həmin məqalədə mənim respublikadakı fəaliyyətim haqqında çox müsbət fikirlər yazmışdı. Görünür ki, ədalətli adamlar da var imiş”.

Şahbaz Muradovun “Ulu Öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi: tənəzzüldən tərəqqiyə yüksələn 50 illik çətin yolun sosial-iqtisadi nəticələri” adlı kitabı Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətlərinin məna və mahiyyətini göstərən, onun fenomenal xüsusiyyətləri barədə oxucuya geniş material verən kamil bir əsərdir. Yeni nəşr sosial-iqtisadi proseslərin geniş təhlili baxımından müstəsna əhəmiyyət kəsb edir.

***Rəsmiyyə ABDULLAYEVA,***
***AMEA İqtisadiyyat İnstitutunun şöbə müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent***

# Rumıniyanın "Stiripesurse" portalında Azərbaycanda koronavirus pandemiyasına qarşı mübarizə haqqında məqalə dərc edilib

Rumıniyanın "Stiripesurse" portalında "Azərbaycan pandemiyanın və onun sosial-iqtisadi nəticələrinin öhdəsindən necə gəldi - faktlar, nümunələr və beynəlxalq baxışlar" sərlövhəli məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə 2020-ci ilin tarixə koronavirus pandemiyası ili kimi daxil olmasından bəhs edilir. Bu təhlükəli xəstəliyə qarşı bütün dünyada mübarizə aparılır. Hazırda hər yerdə diqqət dünya liderlərinin hərəkətlərinə, hökumətlərin fəaliyyətinə, hansı dövlətin bu istiqamətdə daha səmərəli addımlar atmasına yönəlib.




Məqalədə vurğulanır ki, bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin pandemiyaya qarşı mübarizəyə və onun sosial-iqtisadi nəticələrinin aradan qaldırılmasına yönəlmiş ardıcıl və hərtərəfli düşünülmüş fəaliyyəti diqqəti cəlb edir.

Azərbaycan müharibə vəziyyətindədir. Ölkə ərazisinin 20 faizi Ermənistanın silahlı qüvvələri tərəfindən işğal edilib. Qarabağda erməni separatizmi davam edir. Lakin hətta bu vəziyyətdə də bütün dünyanı çənginə almış koronavirus pandemiyasına qarşı mübarizədə nümunə götürülməyə layiq olan prinsipial mövqe nümayiş etdirir.

Azərbaycanda cərəyan edən prosesləri diqqətlə müşahidə etdikdə aydın olur ki, pandemiyaya qarşı səmərəli mübarizəyə, əhalinin sağlamlığının və sosial rifahının müdafiəsinə yönəlmiş qərarların müəllifi bilavasitə Azərbaycan Prezidenti İlham Əliyevdir. O, Operativ Qərargahın fəaliyyətini diqqətlə izləyir, daim tövsiyə və göstərişlər verir. Eyni zamanda ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın humanist hərəkətləri diqqətəlayiqdir.

Pandemiyaya qarşı mübarizə Azərbaycanın iqtisadi gücünü bir daha təsdiq etdi. Dövlətin qüdrəti, onun liderinin gücü və xarizması məhz bu cür fors-major hallarda üzə çıxır. Koronavirus pandemiyası dövründə Azərbaycan güclü iqtidara, operativ hökumətə malik olduğunu nümayiş etdirdi.

Şübhəsiz, bütün bunlar Prezident İlham Əliyevin Azərbaycanda uzun müddət həyata keçirdiyi böyük və dərin siyasi, iqtisadi, sosial islahatların nəticəsidir. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, əsaslı və radikal islahatlar müasir dövrün tələblərinə, şəraitinə və çağırışlarına uyğun olaraq həyata keçirilir. Prezident İlham Əliyev və onun komandası, Azərbaycan hökuməti fasiləsiz iş rejiminə keçiblər. Qonşu İranda və Gürcüstanda koronavirus aşkar ediləndən dərhal sonra Azərbaycan öz sərhədlərini bağladı. Karantin xəstəxanaları ayrıldı, ölkəyə əlavə testlər gətirilməyə başladı.

2020-ci il aprelin 28-nə olan məlumata görə, Azərbaycanda koronavirusa yoluxmuş insanların sayı cəmi 1717 nəfər olub. Onlardan 1221-i müvafiq müalicədən sonra sağalıb, eyni zamanda başqa xəstəliklərdən əziyyət çəkən 22 pasiyent vəfat edib, 474 nəfərin müalicəsi davam edir. Bir sıra ölkələrlə müqayisədə bu rəqəmlər Azərbaycan dövlətinin koronavirusa qarşı mübarizədə yüksək səviyyəsinin göstəricisidir.

Ölkənin orta və ali məktəblərində pandemiyanın yayılmasının qarşısını almaq məqsədilə martın əvvəlində dərslər dayandırıldı, bütün ölkədə təhsil prosesi onlayn rejimdə keçirilməyə başlandı. Bütün müvafiq icra strukturları koronavirusa qarşı mübarizəyə səfərbər edildi. Xaricdə olan Azərbaycan vətəndaşlarının ölkəyə çatdırılması təşkil edildi.

Karantin elan edildiyi vaxtdan vətəndaşların sosial-iqtisadi vəziyyəti respublika rəhbərliyinin daimi diqqət mərkəzindədir. Rəsmən işsiz olan şəxslər, habelə pandemiya dövründə işini itirənlər maddi və ərzaq yardımı alıblar. Prezident İlham Əliyev müvafiq qurumlara sahibkarların düşdüyü zərərin kompensasiya edilməsi, kommunal ödənişlər və bank kreditləri ilə əlaqədar əhaliyə güzəştlər edilməsi barədə göstərişlər və tövsiyələr verib.

Əvvəlki hadisələrin təhlili göstərir ki, Azərbaycan dövləti təkcə indiki pandemiya dövründə deyil, bütün fors-major və fövqəladə hallarda xalqın mənafeyini qoruyub. Nümunə kimi 2015-ci və 2016-cı illərin devalvasiyasından sonra kredit borclarının silinməsinin, Bakıdakı iri ticarət mərkəzlərinin yanmasından sonra vətəndaşlara təmənnasız dövlət yardımı göstərilməsinin, təbii fəlakətlərdən dəymiş zərərin kompensasiya olunmasının və başqa tədbirlərin adını çəkmək olar.

Ölkə daxilində infeksiyanın geniş yayılmasının qarşısını almaq məqsədilə respublikanın şəhər və rayonlarına giriş və çıxış məhdudlaşdırılıb, ciddi tədbirlər görülüb.

Pandemiya dövründə Avropanın inkişaf etmiş dövlətlərində ərzaq qıtlığı müşahidə olunduğu halda, Azərbaycan bu problemlə üzləşməyib. Əksinə, marketlərdə ərzaq bolluğu müşahidə olunur.

Yeri gəlmişkən, pandemiya dövründə Azərbaycan xalqının daha bir üstünlüyü - başqasının dərdinə şərik olmaq, yaxınlarına kömək etmək istəyi üzə çıxdı. Daha yaxşı təmin olunmuş vətəndaşlar dövlətlə bərabər işsizlərə, maddi vəsaitdən məhrum olmuş həmvətənlərinə kömək edir, onlarla həmrəy olduqlarını göstərirdilər.

Azərbaycan dövləti ən qısa müddətdə yerli istehsalın təşkil edilməsi yolu ilə tibbi maskaların çatışmaması problemini həll etdi. Prezident İlham Əliyevin göstərişi ilə Sumqayıt şəhərində maska istehsal edən müəssisə fəaliyyətə başladı. Hazırda bu fabrik gündə 150 minə yaxın maska istehsal edir.

Təbii ki, dövlətin çox böyük məsrəflər, bəzən risklər hesabına gördüyü bütün bu tədbirlər insanların, bütün xalqın müdafiəsinə yönəlib. Prezident İlham Əliyevin göstərişlərinə və tövsiyələrinə müvafiq olaraq atılan bütün humanist addımlar, habelə ciddi tədbirlər və cəzalar bir məqsədə - Azərbaycan vətəndaşlarının, onların doğmalarının və yaxınlarının müdafiəsinə, insanların həyatını itirməməsinə, ağır vəziyyətə düşməməsinə yönəldilib. Prezident "Hər şey vətəndaş və onun sağlamlığı üçündür" prinsipi üzrə hərəkət edir. Bu, Azərbaycan modeli, Azərbaycan nümunəsidir.

Müxtəlif dövlətlər və analitiklərlə yanaşı Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) da Azərbaycanın təcrübəsini bəyənir. Mart ayının axırlarında ÜST-ün Baş direktoru Tedros Gebreyesusun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanlanmış məktubu buna sübutdur. ÜST-ün Baş direktoru həmin məktubda Azərbaycan Prezidentinin siyasətini və onun COVID-19 pandemiyasının təsirini və miqyasını məhdudlaşdırmağa yönəldilmiş hərəkətlərini alqışlayır.

Bütün dövlətlər əsas diqqəti öz daxili problemlərinə yönəltdiyi bir vaxtda Azərbaycan beynəlxalq münasibətləri fəal dəstəkləyən, müvafiq hərəkətləri əlaqələndirən azsaylı ölkələrdən biridir.

Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusa qarşı mübarizəyə həsr edilmiş "Biz birlikdə COVID-19-a qarşıyıq" mövzusunda sammit keçiriləcək. Azərbaycan 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik edir.

Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans formatında fövqəladə sammiti keçirilib.

Koronavirus pandemiyasına qarşı mübarizədə beynəlxalq səylərin dəstəklənməsi məqsədilə Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatının koronavirusa qarşı cavab tədbirləri fonduna 5 milyon ABŞ dolları məbləğində könüllü maliyyə ianəsi edib. Pandemiya dövründə gərgin rejimdə işini davam etdirən Prezident İlham Əliyev bir sıra dövlətlərin və beynəlxalq təşkilatların rəhbərləri ilə onlayn görüşlər keçirib, telefon danışıqları aparıb.

Bu baxımdan mühüm bir detalı qeyd etmək yerinə düşər. Koronavirusun yayıldığı şəraitdə Trans-Adriatik Boru Kəmərinin (TAP) tikintisi davam etdirilib. Bu kəmər Azərbaycan qazını İtaliya bazarına çatdıracaq. İşlər sanitar normalara müvafiq surətdə davam etdirilir, işçilərin sağlamlığının mühafizəsi və təhlükəsizliyi tam təmin edilir. Artıq 2020-ci ildə qazın ilk partiyasının çatdırılacağı gözlənilir. İndiki şəraitdə bu, əsl fədakarlıqdır.

Beləliklə, bütün daxili proseslərin, beynəlxalq münasibətlərin, habelə enerji layihələrinin icrasının obyektiv və əlaqələndirilmiş təhlili belə deməyə əsas verir ki, Azərbaycan koronavirus sınağından şərəf və ləyaqətlə çıxacaq. Müvafiq strukturlar tərəfindən Prezidentin göstərişlərinə uyğun olaraq həyata keçirilən və onun xüsusi nəzarətində olan tədbirlər qısa müddətdə müsbət nəticələr verir. Pandemiya artıq səngiməkdədir, aprel 27-dən başlayaraq karantin rejimi yumşaldılıb.

Daha bir mühüm məqam ondan ibarətdir ki, pandemiyaya qarşı hələ də mübarizə aparmaqda olan digər dövlətlərlə müqayisədə Azərbaycan artıq postpandemiya dövrü üçün proqramlar hazırlayır.

Buradan belə nəticə çıxarmaq olar ki, pandemiya dövründə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən proqramlar tamamilə effektiv olduğunu sübut edib, müdrik qərarlar operativ komanda tərəfindən dərhal reallaşdırılıb.

Əlbəttə, bu, təqdirəlayiq haldır və dünya birliyi tərəfindən gələcəkdə hər hansı fors-major hallarında müsbət təcrübə kimi istifadə edilməlidir.

Məqalənin sonunda bir mühüm fakt qeyd edilir. Sosial Araşdırmalar Mərkəzi tərəfindən mart ayında keçirilmiş sorğunun aprelin 17-də dərc edilmiş nəticələrindən görünür ki, Azərbaycan vətəndaşlarının 94,7 faizi Prezident İlham Əliyevə etimad bəsləyir və onu dəstəkləyir. Ölkə vətəndaşları Prezident İlham Əliyevə pandemiya dövründə görülmüş qətiyyətli tədbirlərə, xalqın dəstəklənməsinə görə səmimi təşəkkür məktubları yazırlar. Ekspertlər bunu xalq ilə dövlətin qarşılıqlı münasibətlərinin səmimiliyi kimi qiymətləndirirlər.

# YAP-ın rayon və şəhər təşkilatları sədrlərinin iştirakı ilə videokonfrans şəklində növbəti müşavirəsi keçirilib

Mayın 2-də Yeni Azərbaycan Partiyasının (YAP) rayon və şəhər təşkilatlarının sədrlərinin iştirakı ilə videokonfrans şəklində növbəti müşavirəsi keçirilib. YAP-dan AZƏRTAC-a bildiriblər ki, müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-icra katibi Əli Əhmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əhəmiyyətindən, qazanılan uğurlardan bəhs edib.

Hazırda dünyanın koronavirus pandemiyası ilə mübarizəyə səfərbər olunduğunu deyən Əli Əhmədov bildirib ki, bu istiqamətdə Azərbaycan dövləti və hökuməti sistemli tədbirlər həyata keçirir və bu tədbirlər Prezident İlham Əliyevin birbaşa nəzarətindədir. Qabaqlayıcı, sistemli tədbirlər nəticəsində Azərbaycan koronavirus infeksiyasının ən az yayıldığı ölkələr sırasındadır. Əli Əhmədov həmçinin qeyd edib ki, Yeni Azərbaycan Partiyası da koronavirusa qarşı mübarizə çərçivəsində görülən işlərə fəal şəkildə qoşulub. Partiyanın bütün strukturları, o cümlədən rayon və şəhər təşkilatları əhalinin həssas təbəqəsinə aid olan ailələrə müntəzəm olaraq yardım və dəstək göstərir.

Müşavirədə qarşıda duran vəzifələrlə bağlı partiyanın rayon və şəhər təşkilatlarına müvafiq tövsiyə və tapşırıqlar verilib.

# Milli Məclisin komitə iclasları keçirilib

Mayın 2-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Məclis Sədrinin birinci müavini, komitə sədri Əli Hüseynli iclası açaraq gündəlik barədə məlumat verib.

Sonra Məhkəmə-Hüquq Şurası Aparatının rəhbəri Cavid Hüseynov Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi, Bakı Apelyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi və bir sıra məhkəmələrin hakimlərinin vəzifədən azad edilməsi haqqında məsələlər barədə danışıb.

Bildirib ki, bu gün ölkəmizdə genişmiqyaslı islahatlar həyata keçirilir. Hüquq mühafizə orqanları və məhkəmə sistemində də bu istiqamətdə işlər aparılır. Azərbaycan Respublikası Prezidentinin məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi ilə bağlı 2019-cu il 4 aprel tarixli fərmanı bu islahatların yeni müstəvidə inkişafına təkan verib. Ölkəmizdə qısa müddət ərzində 12 yeni məhkəmə yaradılıb, kommersiya məhkəmələri bu ildən fəaliyyətə başlayıb. Hakimlərin seçilməsi prosesi davamlı xarakter alıb, fasiləsiz seçim prosedurları yaradılıb.

Diqqətə çatdırılıb ki, son bir il ərzində Ali Məhkəmədə 9 hakimin səlahiyyət müddəti başa çatıb. Bununla əlaqədar Ali Məhkəmədə vakansiya yaranıb. Məhkəmənin bugünkü tələblərə cavab verməsi üçün bu ştatların komplektləşdirilməsi zəruridir.

Məhkəmə-Hüquq Şurası tərəfindən məhkəmə sisteminin fəaliyyəti ətraflı təhlil edilib. Apelyasiya instansiyası məhkəməsinin fəaliyyətinin təkmilləşdirilməsi günün tələbidir. Bunları nəzərə alaraq, Məhkəmə-Hüquq Şurası tərəfindən Ali Məhkəmənin bəzi hakimlərinin Apelyasiya instansiyası məhkəməsinə keçirilməsi məsələsi qoyulub. Beş hakimin Ali Məhkəmədən azad edilərək, onlardan 4-nün Apelyasiya instansiyası məhkəməsində fəaliyyətini davam etdirməsi, bir nəfərin isə birinci instansiya məhkəməsinin hakimi kimi fəaliyyət göstərməsi məqsədəuyğun hesab edilir.

Qeyd edilib ki, Məhkəmə-Hüquq Şurası Ali Məhkəmənin fəaliyyətinin təkmilləşdirilməsi üçün onun tərkibinin digər təcrübəli kadrlarla möhkəmləndirilməsi məsələsini önəmli hesab edir. "Məhkəmələr və hakimlər haqqında" Qanunun 93-4-cü maddəsinə əsasən hüquq sahəsində 20 ildən çox təcrübəyə malik şəxslərin fəaliyyəti nəzərdən keçirilib və 3 nəfərin xüsusi qaydada Ali Məhkəməyə təyin edilməsi məsələsi qaldırılıb. Eyni zamanda Apelyasiya Məhkəməsinə bir sıra hakimin irəli çəkilməsi və 3 hakimin birinci instansiya məhkəməsinə keçirilməsi məqsədəmüvafiq hesab olunub.

Komitə sədri Əli Hüseynli çıxışında vurğulayıb ki, son dövrlər ölkəmizdə yerli və mərkəzi icra hakimiyyəti orqanlarında, hökumətdə, parlamentdə islahatlar həyata keçirilir. Prezidentin məlum fərmanından sonra məhkəmə-hüquq sistemində də islahatlar dərinləşməyə başlayıb. Bu gün təqdim olunan təkliflər də bu islahatların tərkib hissəsidir.

İclasda çıxış edən komitə üzvləri Qüdrət Həsənquliyev, Fəzail Ağamalı, Tahir Kərimli, Bəhruz Məhərrəmov, Erkin Qədirli, Elşən Musayev, Kamal Cəfərov, Nurlan Həsənov ölkəmizdə məhkəmə-hüquq sisteminin fəaliyyəti ilə bağlı fikirlərini açıqladılar, təkliflərini səsləndirdilər. Deputatlar Ali Məhkəməyə və Apelyasiya Məhkəməsinə namizədlikləri təqdim olunmuş şəxslərin iş təcrübələri, mənəvi keyfiyyətləri barədə düşüncələrini bölüşdülər.

Müzakirələrin sonunda gündəlikdəki hər üç məsələ Milli Məclisin plenar iclasında baxılmaq üçün tövsiyə olunub.

* * *

Mayın 2-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin növbəti iclası keçirilib.

Komitənin sədri Musa Quliyev gündəlikdə "Sosial sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) və "Turizm haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) məsələlərin olduğunu bildirdi.

Komitə sədri məlumat verdi ki, Azərbaycan Prezidentinin cari il martın 19-da imzaladığı "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamın 10.2-ci bəndinin icrası ilə əlaqədar Nazirlər Kabineti aprelin 4-də Tədbirlər Planını təsdiqləyib. "Sosial sığorta haqqında" qanuna təklif olunan dəyişikliklər bu məsələlərlə əlaqədardır. Belə ki, müzakirəyə təqdim olunan qanun layihəsi bir sıra sahibkarlıq subyektlərinin sosial sığorta yükünün azaldılması ilə bağlı güzəştləri əhatə edir.

İclasda çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov, Vergilər Nazirliyinin İqtisadi təhlil və uçota nəzarət Baş İdarəsinin rəisi Natiq Şirinov qanun layihəsi barədə ətraflı məlumat verdilər, koronavirus pandemiyası ilə bağlı ölkəmizdə həyata keçirilən sosial tədbirlərdən danışdılar. Bildirildi ki, ümumilikdə 4,8 milyon vətəndaş sosial dəstək tədbirlərindən faydalanacaq.

İclasda çıxış edən komitə üzvləri Ziyad Səmədzadə, Jalə Əliyeva, Vüqar Bayramov, İlham Məmmədov, Sevinc Hüseynova, Arzu Nağıyev, Sultan Məmmədov, Məlahət İbrahimqızı bu dəyişiklikdən sonra məcburi dövlət sosial sığorta haqlarının ödənilməsində tətbiq ediləcək güzəştləri yüksək qiymətləndirdilər, layihə barədə qeyd və təkliflərini verdilər.

Sonra Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov, Vergilər Nazirliyinin İqtisadi təhlil və uçota nəzarət Baş İdarəsinin rəisi Natiq Şirinov, Dövlət Sosial Sığorta Fondunun direktoru Himalay Məmişov deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirdilər.

Müzakirələrin sonunda "Sosial sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edildi.

İclasda "Turizm haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi də ikinci oxunuşda müzakirə olundu.

Məlumat verildi ki, qanunun 7-ci maddəsinə təklif olunan dəyişiklik ölkəmizdə ASAN vizanın tətbiqi ilə əlaqədardır və birdəfəlik və ya çoxdəfəlik elektron vizanın verilməsini özündə ehtiva edir.

İclasın sonunda bu qanun layihəsi də ikinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edildi.

Bununla da Əmək və sosial siyasət komitəsinin iclası başa çatdı.

# İlham ƏLİYEV: "Heç kim məsuliyyətdən boyun qaçıra bilməyəcək"

*Əvvəli 1-ci səh.*

Bu məqsədlə həmçinin dövlət xidmətlərinin göstərilməsində müasir informasiya-kommunikasiya texnologiyalarından istifadənin genişləndirilməsi, dövlət orqanlarının göstərdikləri xidmətlərin elektronlaşdırılması, vətəndaş cəmiyyəti institutlarının ictimai həyatda rolunun daha da gücləndirilməsi, maliyyə şəffaflığının təmin edilməsi və korrupsiyanın qarşısının alınması sahəsində mühüm tədbirlər görülüb.

Bu ilin fevral ayında Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiq olunub. Bu fəaliyyət planında ölkəmizdə korrupsiyanın qarşısının alınması və dövlət orqanlarının fəaliyyətində şəffaflığın gücləndirilməsi, maliyyə şəffaflığının təmin edilməsi, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına qarşı mübarizə, dövlət xidmətlərinin təkmilləşdirilməsi, ictimai nəzarətin və ictimai iştirakçılığın artırılması, yerli özünüidarəetmədə hesabatlılığın, aşkarlığın və ictimai iştirakçılığın təmin olunması, özəl sektorda şəffaflığın və məsuliyyətin artırılması, əhaliyə göstərilən kommunal xidmətlərdə şəffaflığın və müştəri məmnunluğunun artırılması sahəsində tədbirlər nəzərdə tutulub.

## Rüşvətxorlar və islahatlara kölgə salanlar məsuliyyətdən qaça bilməyəcəklər

Göründüyü kimi respublikamızda korrupsiya ilə mübarizə sahəsində böyük siyasi iradə mövcuddur. Həyata keçirilmiş bütün bu tədbirlər nəticəsində mühüm qanunlar qəbul edilmiş, korrupsiyaya qarşı mübarizə aparan ixtisaslaşmış institutlar fəaliyyətə başlamış, dövlət orqanlarında islahatlar aparılmış, vətəndaş cəmiyyətinin üzvləri ilə səmərəli əməkdaşlıq qurulmuş, ictimai nəzarət və maliyyə intizamı gücləndirilmiş, vətəndaş-məmur münasibətləri minimuma endirilmiş, dövlət qurumlarına müraciət elektronlaşdırılıb.

Ümumiyyətlə, respublikamızda həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində qazanılan uğurların davamlılığı korrupsiyaya qarşı mübarizə sahəsindəki tədbirlərin önəmini daha da artırmaqdadır. Bütün sahələrdə şəffaflıq prinsipinin, maliyyə intizamının gücləndirilməsi, eləcə də korrupsiya hallarına qarşı digər mübarizə tədbirlərinin genişləndirilməsi də məhz bu reallıqla şərtlənir. Korrupsiyanı hər bir dövlətin sosial-iqtisadi inkişafını əngəlləyən buxov hesab edən Prezident İlham Əliyev sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin gücləndirilməsini xüsusi diqqətdə saxlayır. Ölkəmizdə həyata keçirilən quruculuq işlərinə, iqtisadi, sosial və siyasi sahədə aparılan islahatlara kölgə salan, habelə əhalinin haqlı narazılığına səbəb olan rüşvətxorluq və korrupsiya kimi neqativ təzahürlərə qarşı daha ciddi mübarizə aparılması sahəsində zaman-zaman məmur adına ləkə salanlar ifşa olunub, ədalət mühakiməsi qarşısına çıxarılıblar.

Lakin təəssüflə qeyd edilməlidir ki, bu gün də Prezidentin xəbərdarlıqlarından nəticə çıxarmayan, ona göstərilmiş etimaddan öz maraqları və tamahı üçün sui-istifadə edən məmurlara rast gəlinir. Ən acınacaqlısı isə odur ki, belə məmurlar aparılan islahatlara kölgə salmaqla yanaşı, dünya bəlasına çevrilmiş koronavirusla mübarizə zamanı da üzərlərinə düşən vəzifələrin məsuliyyətini anlamayaraq, bu prosesdən öz maraqları üçün istifadə edirlər. Ağstafa, Biləsuvar, Yevlax, Neftçala rayonlarının icra başçılarının əməlləri göstərdi ki, bu adamlar yol verdikləri korrupsiya hərəkətləri ilə tək onlara bəslənən etimada deyil, Prezidentə və xalqa xəyanət ediblər.

Prezident İlham Əliyev baş prokuror Kamran Əliyevi videoformatda qəbul edərkən bu məsələyə münasibət bildirərək deyib: "Ağstafa, Biləsuvar, Yevlax, Neftçala rayonlarının icra başçıları həbs edilmişdir, ictimaiyyətə bu məsələ ilə bağlı ətraflı məlumat verilmişdir və bundan sonra da ətraflı məlumat veriləcəkdir. Eyni zamanda bu yaxınlarda Binəqədi qəsəbə bələdiyyəsinin sədri saxta icazə sənədi satmaqda ittiham olunub və əşyayi-dəlillə saxlanılıb. İsmayıllı rayonunun şəhər üzrə icra nümayəndəsi yardımın mənimsənilməsi ilə məşğul olmuş, kasıb adamlara göndərilən yardımı özünə götürmüşdür. Həbs edilmiş icra başçılarının istintaqı gedir. Ancaq bu gün nümayiş etdirilən videokadrlar onu göstərir ki, rüşvətxorluq bu adamlar üçün əsas prinsip olmuşdur. Yəni bütün aidiyyəti qurumlar bir qayda olaraq hər ay icra başçılarına və icra hakimiyyətinin digər nümayəndələrinə rüşvət verməli olmuşlar. Əfsuslar olsun ki, belə xoşagəlməz hallar digər rayonlarda da vardır. Bu haqda məlumat var və bir daha demək istəyirəm ki, heç kim məsuliyyətdən boyun qaçıra bilməyəcək".

Təəssüf ki, öz məsuliyyətini anlamayanlar arasında icra başçıları ilə yanaşı, müxtəlif vəzifə sahiblərinə və öz vəzifəsinin nədən ibarət olduğunu bilməyən bələdiyyə sədrlərinə də rast gəlinir. Lakin, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, heç kim qanundan üstün deyil və əgər kimsə fikirləşirsə ki, onun yaxınları, tanışları, qohumları, yüksək vəzifəli dostları kömək edəcəklər, səhv edir. Öz əməlləri ilə Prezidentə, xalqa və vəzifəsinə xəyanət edənlər mütləq layiqli cəzalarını alacaqlar.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycanda koronavirusa daha 40 yoluxma faktı qeydə alınıb, 46 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 40 yoluxma faktı qeydə alınıb, 46 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, hazırkı dövrədək ölkəmizdə 1894 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1411 nəfər müalicə olunaraq sağalıb, 25 nəfər vəfat edib, 458 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 14 nəfərin vəziyyəti ağır, 23 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 152.597 test aparılıb.

# Pandemiyanın ikinci dalğası başlaya bilər

*Əvvəli 1-ci səh.*

Sağalanların sayı yüksəkdir. Həmçinin yoluxanların sayında artım müşahidə olunur. Yəni müsbət və mənfi tendensiyalar paralel inkişaf edir.

## İnsanlarda psixoloji arxayınlıq yaranıb

Əvvəllər vətəndaşlar koronavirusa görə qorxu hissi keçirirdilər və bu səbəbdən də qaydalara daha ciddi əməl etməyə və yoluxmamağa çalışırdılar. Hazırda isə görünən odur ki, vətəndaşlarda qorxu hissi getdikcə azalır. Sanki insanlarda psixoloji arxayınlıq yaranıb ki, virusun yayılma prosesi sona çatıb.

Mayın 4-dən etibarən fərdi ticarət obyektlərinin, bərbərxanaların, gözəllik salonlarının fəaliyyətə başlaması isə paytaxtda hərəkət intensivliyini artırmış olacaq. Bu da vətəndaşlarda arxayınçılıq, yəni təhlükənin sovuşduğu əhvali-ruhiyyəsini daha da yüksəltmiş olacaq.

Ancaq mütəxəssislər hesab edirlər ki, məhdudiyyətlərin aradan qaldırıldığı üçün əhali arasında virusa yoluxmada artım yarana və prosesin ikinci dalğası başlaya bilər. Çünki koronavirus xəstəliyi uzunmüddətli prosesdir. Bu səbəbdən mövcud qaydalara riayət olunması və zəruri profilaktik tədbirlərin davam etdirilməsi vacibdir. Həmçinin hər kəs sosial məsuliyyətdən irəli gələn tədbirlərə, yəni sanitar-epidemioloji qaydaların hamısına riayət etməlidir. Bura şəxsi gigiyena və zəruri profilaktik qaydaların hamısı daxildir.

Əlbəttə ki, ötən müddət ərzində sanitar-epidemioloji şəraitdən asılı olaraq mərhələli şəkildə yumşaldılmalar olacaq. Bu, təbiidir. Lakin vətəndaşlar qaydalara əməl etməsələr, epidemioloji vəziyyət nəzərə alınaraq karantin rejimi yenidən sərtləşdirilə, müvafiq məhdudiyyətlər yenidən tətbiq oluna bilər. Çünki bu infeksiyaya və onun fəsadlarına qeyri-ciddi yanaşmaq olmaz.

Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hande Harmancı da vəziyyəti dəyərləndirərkən vurğulayıb ki, epidemiyanın ikinci dalğası birinci dalğada xəstələnməyən insanların yoluxması nəticəsində ortaya çıxa bilər: "Əgər pandemiyanın qarşısının alınması üçün görülən tədbirlərin səmərəsi az olarsa, yeni yoluxma dalğaları da baş verə bilər. Bu dalğalar yavaş-yavaş, kiçik halda yaranarsa, səhiyyə sistemi onların öhdəsindən gələ bilər. Epidemiyanın ikinci dalğası birinci dalğada xəstələnməyən insanların yoluxması nəticəsində ortaya çıxa bilər. Ən önəmli olan məsələ budur ki, özümüzü qoruyaq, virusun insandan-insana keçməsinin qarşısını alaq".

## Xəstə sayında artım olarsa, karantin rejimi yenidən sərtləşdiriləcək

Bir sözlə, karantin rejiminin bəzi məhdudiyyətlərinin aradan qaldırılması, bir sıra sahələrin fəaliyyətinə icazə verilməsi təhlükənin sovuşduğu anlamına gəlmir. Bu qərar görülən tədbirlərin nəticəsində koronavirusla mübarizədə müsbət tendensiya əldə edilməsindən sonra qəbul edilib. Əgər insanlar "pandemiya bitdi" deyərək köhnə həyatlarına qayıdarlarsa, xəstə sayında artım olacaq. Bu isə o deməkdir ki, artım olarsa, dövlət tərəfindən karantin rejimi yenidən sərtləşdiriləcək, müvafiq məhdudiyyətlər yenidən tətbiq olunacaq.

Mütəxəssislər də hesab edirlər ki, koronavirus uzunmüddətli infeksiyadır. Təsadüfi deyil ki, Qərb ölkələri xəstəliyin minimum ilin sonuna qədər davam edəcəyini bildirirlər. Bu səbəbdən indiki vəziyyətdə hər şey insanlardan asılıdır.

Azərbaycanda dövlətin pandemiyaya qarşı apardığı ciddi mübarizə göz önündədir. Əgər Prezident İlham Əliyevin qabaqlayıcı tədbirləri olmasaydı, indi müsbət, effektiv dinamika da olmazdı.

Mayın 1-də dövlət başçısı İlham Əliyev yeni Baş prokuror Kamran Əliyevlə keçirdiyi videoformatlı görüşdə bu məsələyə toxunaraq vurğuladı ki, pandemiya ilə əlaqədar dövlət bütün resursları səfərbər edib, ilk növbədə, vətəndaşları, onların həyatını, sağlamlığını qorumaq üçün əlindən gələni edir. Operativ Qərargah, bütün aidiyyəti qurumlar gecə-gündüz işləyir. Bu da təbii ki, öz effektiv nəticəsini verir. Məqsəd, ilk növbədə, Azərbaycanın bu pandemiyadan az itkilərlə qurtulmasıdır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***






# Gənclik







● Gənclər gələcəyimizdir



## Dövlət gəncliyə, gənclər isə öz liderinə güvənir

### Azərbaycan Prezidenti İlham Əliyevin gəncliyə inamı hər iki tərəf arasındakı sarsılmaz birliyin ifadəsidir

**Gənclik bütün dövrlərdə yenilikçi, islahatçı, yaradıcı potensialı ilə orta və yaşlı nəslin diqqətini çəkib. Müstəqil Azərbaycan gəncliyi bütün ictimai-siyasi fəaliyyəti, elmi potensialı ilə yanaşı, həm də vətənpərvərliyi ilə tarixə imza atır. Ulu Öndər Heydər Əliyev məhz buna görə hələ keçmiş sovetlər dövründən başlayaraq Azərbaycan gənclərinin yanında olub, onlara SSRİ-nin ən güclü ali məktəblərində müxtəlif ixtisaslar üzrə təhsil almalarında dəstək göstərib, onları dövlət orqanlarında məsuliyyətli vəzifələrdə sınaqdan keçirib.**

Bu vacib amil Azərbaycan Prezidenti İlham Əliyevin də yürütdüyü dövlət və gənclik siyasətinin tərkib hissələrindəndir. Prezident İlham Əliyevin sərəncamı ilə gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə 2020-ci il respublikada "Könüllülər ili" elan edildi. Bununla bağlı bu il yanvarın 14-də Azərbaycan Respublikasının Gənclər Fondunun təşkilatçılığı ilə Bakı Gənclər Mərkəzində gənclər təşkilatları və könüllülər hərəkatının iştirakı ilə görüşün keçirilməsi yeni nəslin daim diqqətdə saxlanması demək idi. Əsas məqsəd 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında sərəncama uyğun olaraq könüllü fəaliyyətin təşviqi, il ərzində reallaşdırılması nəzərdə tutulan layihə və tədbirlər, yeni təşəbbüslər barədə müzakirələrin təşkili olmuşdur.

Görüş zamanı iştirakçılar tərəfindən Azərbaycan Prezidenti İlham Əliyevin könüllülüyün inkişafı, gənclərin könüllü fəaliyyətinə cəlb olunması və ümumilikdə onların potensialından istifadəyə xüsusi qayğı və diqqəti alqışlarla qarşılanmışdı.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov o günləri xatırlayaraq qeyd edir ki, həmin görüşdə həmçinin könüllülüyün region gənclərinin arasında təşviqi, maarifləndirmə xarakterli tədbirlərin təşkili, geniş könüllü şəbəkəsinin formalaşdırılmasına dəstək məqsədilə uzunmüddətli proqramların icrası, onlar üçün düşərgələrin yaradılması və digər istiqamətlərlə bağlı təkliflər dinlənilib və geniş müzakirələr aparılıb: "Bildiyimiz kimi, könüllü fəaliyyətin təşviqi Gənclər Fondunun əsas prioritet istiqamətlərindən biridir. Ötən müddət ərzində Gənclər Fondunun "Gənc Könüllü" proqramının fəaliyyəti genişləndirilmiş, regionlarda təmsilçiliyi artmışdır. Proqram vasitəsilə yüzlərlə gənc ilk dəfə könüllü hərəkatına qoşulmuş və nümayəndəliklərin fəaliyyətinin təşkilində aktiv iştirak etmişlər".

Onu da qeyd etmək yerinə düşər ki, ötən ilin dekabrında həmçinin "Azərbaycan Könüllülük Həftəsi" layihəsi də həyata keçirilmişdi. Bütün könüllü təşkilatları və hərəkatlarını, həmçinin ölkəmizin əksər şəhər və rayonlarını əhatə edən "Könüllülük Həftəsi" çərçivəsində silsilə tədbirlər rəğbətlə qarşılanmışdı. Həftə çərçivəsində eyni zamanda 79 yerli icra hakimiyyəti orqanı tərəfindən ümumilikdə 15 min nəfərdən çox könüllünün iştirakı ilə 100-dən artıq tədbir keçirilmişdi.

Seymur Orucov ümumi ölkə gəncliyinin düşüncələrini ifadə edərək bildirir ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirilir: "Cənab Prezident tərəfindən həyata keçirilən gənclər siyasəti yeni mərhələsini, Azərbaycan dövləti isə sürətli inkişaf dövrünü yaşayır. Əlbəttə, bu inkişaf gənclər üçün yeni imkanlar açır. Dövlətimizin siyasətində gənclərlə bağlı məsələlər mühüm yer tutur. Yeni Azərbaycanın maliyyə-iqtisadi imkanları artdıqca, bütün sahələrin inkişafına kapital qoyulur və bu, çox müsbət nəticələr verir. Təbii ki, gənc nəsil bu prosesdən kənarda qalmayıb. Gəncliyin inkişafı, yüksək intellektli, vətənpərvər yetişməsi üçün çox əhəmiyyətli layihələr həyata keçirilir".

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə reallaşdırılan siyasətin başlıca istiqamətlərindən biri gənclərə dövlət dəstəyinin gücləndirilməsindən, onlara hərtərəfli diqqət göstərilməsindən ibarətdir. Son illər respublikamızda həyata keçirilən tədbirlər gənclərin hərtərəfli inkişafının təmin olunması üçün siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şərait və təminatların yaradılmasını sürətləndirib, onların ictimai-siyasi fəallığının artmasına kömək edib.

Həmsöhbətim onu da xüsusi vurğulayır ki, bu gün Azərbaycan gəncləri ictimai həyatın bütün bölmələrində fəallığı ilə seçilir, siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayırlar: "Gənclər siyasəti onların bütün təbəqələrinin hərtərəfli inkişafını, ölkənin ictimai-siyasi həyatında yaxından iştirakını təmin etməkdədir. Yeni mərhələdə dövlət başçısı tərəfindən gerçəkləşdirilən siyasət ən müxtəlif sahələri əhatə etməklə geniş spektrlidir. Belə ki, bu siyasət gənclərin tərbiyəsi, sağlamlığı, təhsili, intellektual və mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili, həmçinin onların cəmiyyət həyatının bütün sahələrində fəal iştirakı ilə bağlı məsələləri əhatə edir. Gənclərlə düzgün iş strategiyasının müəyyənləşdirilməsi və bundan irəli gələn vəzifələrin dəqiqliklə yerinə yetirilməsi nəticəsində Azərbaycan gənci idman, elm, mədəniyyət, incəsənət və s. sahələrdə böyük nailiyyətlər qazanır, dövlətçilik ənənələrini daim uca tutur, çoxşaxəli dövlət islahatlarının həyata keçirilməsində yaxından iştirak edir.

Məlum koronavirus pandemiyasının ölkəmizdə də peyda olması, təbii ki, Azərbaycan gəncliyinin bu gün daha çevik, operativ, qəbul olunan qanun və qaydalara daha ciddi əməl edilməsində nümunə olmağa səsləyir. Sevindirici haldır ki, gəncliyimizi sözün həqiqi mənasında "ön cəbhə"də çalışan müəyyən dövlət strukturlarının, eləcə də həkimlərimizin yanında görürük. Əhalinin sosial baxımdan zəif, yaşlı nəslinin nümayəndələrinə, aztəminatlı ailələrə, tənha yaşayanlara könüllülük prinsipi əsasında yardımlar göstərilməsində də məhz gənclərimiz fəallıqları ilə seçilirlər.

Pandemiyanın qarşısının alınması istiqamətində dövlət başçısının yürütdüyü siyasətə ilk olaraq qoşulan, dəstək verən, milli birlik və həmrəylik nümayiş etdirən gənclərimiz nəinki təşkilatlarda, hətta fərdi yollarla da öz köməkliklərini göstərirlər. Bununla yanaşı Azərbaycan gəncliyi dövlət başçısının bütün dövrlərdə, o cümlədən də pandemiyanın dünyanı bürüdüyü bu günlərdə yürütdüyü siyasəti bəyəndiyini və dəstəklədiyini Prezident İlham Əliyevə ünvanladığı çoxsaylı məktublarda da əks etdirir. Belə ki, Azərbaycan Prezidentinin ünvanına axın-axın gələn həmin məktublar ictimaiyyətin bütün təbəqələrini təmsil edirsə də, burada da gəncliyin daha çox olması diqqətdən yayına bilməz.

İsmayıllı rayonunun Basqal qəsəbəsindən Nərgiz Əsədlinin yazdığı məktubdan bəzi sətirlərə diqqət yetirək: "Hörmətli cənab Prezident, Sizə ölkəmizin gənc vətəndaşı olaraq təşəkkür dolu məktubumu çatdırmaq istəyirəm. Bütün dünyanın birlikdə mübarizə apardığı bu "gizli düşmən"lə qarşı-qarşıya qaldığımız bir zamanda xalqımızın yanında olduğunuz üçün şəxsən öz adımdan Sizə böyük minnətdarlıq hisslərimi bildirirəm. Möhtərəm Prezident! Mən bir azərbaycanlı gənc tələbə kimi bu məktubu yazmağı özümə borc bildim. Hər şeydən əvvəl onu qeyd edim ki, biz Azərbaycan gəncləri Sizinlə qürur duyuruq".

Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi, "UNEC Könüllüləri" Təşkilatının sədri Orxan Vəliyev isə yazır: "Cənab Prezident! Biz hər zaman Sizin bütün qərarlarınızı dəstəkləyir və fəaliyyətimizdə onları daim rəhbər tuturuq. Bilirik ki, hər zaman bizim arxamızda Sizin kimi liderimiz dayanıb. Əminik ki, Sizin uğurlu və düşünülmüş siyasətiniz biz azərbaycanlılara bütün çətin sınaqlardan çıxmağa kömək edəcək".

Zaqatala rayonu gənclərindən olan Famil Rəhimovun məktubunda qeyd edilir ki, daim, xüsusən də çətin gündə xalqımızın, o cümlədən gənclərimizin yanında olan dövlət başçısı pandemiyanın tüğyan etdiyi dövrdə bir daha təsdiqlədi ki, bizim qayğımızı, sağlamlığımızı hər şeydən üstün bilir, dəyərləndirir və təhlükəsizliyimizin təmin olunması üçün var qüvvəsini əsirgəmir.

Kürdəmir rayonunda yaşayan Elmir Həsənovdan gələn məktubda da gəncliyin ümumi fikri ifadə edilir. Məktub müəllifi yazır ki, "tələbə olaraq dünyada gedən prosesləri diqqətlə izləməyə çalışıram və cənab Prezident, Sizin hər zaman dərin mənalı çıxışlarınıza baxaraq bununla qürur duyuram. Allah hər zaman Sizi qorusun!"

Əlbəttə, belə məzmunlu məktublar kifayət qədərdir. YAP Yasamal Rayon Gənclər Birliyinin sədr müavini Əsmər Nəbiyevanın, Zakir Quliyevin, həmçinin Orxan Nuriyevin, Nuranə Məmmədzadənin, Ənvər Əsgərovun, Elmir Nəbiyevin, Əkbər Nəcəfovun, Şahin Əliyevin və yüzlərlə belə gənclərin dövlət başçısına ünvanladıqları məktublardan da görünür ki, Azərbaycan Prezidenti İlham Əliyevin gəncliyə inamı hər iki tərəf arasındakı mövcud sarsılmaz birliyin ifadəsidir. Necə deyərlər, dövlət gəncliyə, gənclər isə öz liderinə güvənir və monolit birlik yaradırlar!

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

● Gənc alimlərimiz

## Milli birlik və vətəndaş həmrəyliyi



**Son illər ölkəmizdə bütün sahələr üzrə aparılan uğurlu islahatlar öz bəhrəsini verməkdədir. 2020-ci ilin islahatlar ili elan edilməsi, eləcə də bununla bağlı atılan ardıcıl və qətiyyətli addımlar, həmçinin gənc kadrların mühüm dövlət işlərinə cəlb edilməsi dövrün tələbləri ilə uzlaşan müasir idarəetmə siyasətinin bərqərar olması, xüsusən gənclərə göstərilən etimad baxımından göz oxşayır. Aparılan iqtisadi və siyasi dəyişikliklər, daxili və xarici siyasətdə əldə olunan uğurlar vətəndaşlarımızı nə qədər sevindirsə də, düşmənlərimizi ziyadəsi ilə təşvişə salır.**

Bütün sadalanan fəaliyyətin memarı kimi ölkə Prezidentinin gələcək inkişafla bağlı yürütdüyü məqsədyönlü siyasət ölkəmizin qarşılaşa biləcək maneələrdən üzüağ çıxması baxımından güvən formalaşdırır. Son aylar bəşəri bəlaya çevrilmiş, həmçinin çoxsaylı insan tələfatına və iqtisadi deqradasiyaya səbəb olmuş, xüsusən gərgin psixoloji böhran formalaşdırmış pandemiya şəraitində hökumət səviyyəsində qəbul edilmiş mühüm qərarlar, əvvəlcədən yaradılan infrastrukturlardan təyinatı üzrə istifadə, eləcə də yeni istehsal və tibbi müəssisələrin inşası həyata keçirilən siyasətin zaman baxımından doğruluğunu və vacibliyini bir daha göz önünə gətirir. İndiki şəraitdə dünyada yaranan xaos və nizamsız idarəetmədən fərqli olaraq cənab Prezidentin xüsusi göstərişi ilə qısa müddətdə respublika ərazisində müvafiq tibbi məmulatların istehsalına başlanılması, respublikamızda maska və tibbi spirt qıtlığına rast gəlinməməsi dövlət başçısının qətiyyətindən və bənzərsiz idarəçilik qabiliyyətindən xəbər verir.

Bu çətin günlərdə xalqı ilə həmrəy olmaq, o cümlədən işsizlər üçün müəyyənləşdirilmiş müavinətlərin verilməsində operativliyi təmin etmək, aztəminatlı ailələrin övladlarının təhsil haqlarının dövlət tərəfindən ödənilməsi kimi mühüm qərarlar qəbul etmək, sahibkarlara bu çətin dönəmlərdə dəstək olmaq və s. məsələlər Azərbaycan xalqı tərəfindən xüsusi rəğbətlə qarşılanaraq humanist rəhbərə qarşı olan sevginin diapazonunu sərhədsiz genişləndirmişdir. Bundan başqa, ən mürəkkəb vəziyyətlərdə, eləcə də həssas dönəmlərdə vətəndaşlarımızın birmənalı şəkildə ölkə rəhbərliyinin çağırışlarına adekvat cavab verməsi, o cümlədən sağlam cəmiyyət uğrunda aparılan mübarizədə önərilən tələblərə qarşı loyallıq göstərməsi dövlət başçısına olan hədsiz inam və etimadın nəticəsidir.

Belə çətin və məsuliyyətli vaxtda xalqı üçün göstərdiyi böyük xidmətlərə görə Azərbaycanın gənc alimləri cənab Prezidentə dərin minnətdarlıqlarını bildirirlər. Biz gənclər gələcəklə bağlı ən böyük hədəflərimizin gerçəkləşməsinin yalnız Prezident İlham Əliyevin rəhbərliyi ilə mümkün olacağına inanır, bunun üçün bütün bacarığımızı daim səfərbər edirik.

*Famin SALMANOV,*
*AMEA-nın Gənc Alim və Mütəxəssislər Şurasının sədri, fizika üzrə fəlsəfə doktoru, dosent*

● Tribuna

## Dövlətin diqqət və qayğısı məsuliyyətimizi artırır



**Bu gün bütün dünya koronavirus (COVID-19) adlı pandemiya ilə üz-üzədir. Ölkələr bu fəlakətin yaratdığı problemləri necə həll edəcəyi, virusla mübarizə aparmağın yolları barədə fikirləşirlər. Koronavirusun ilk dəfə respublikamıza ayaq açdığı dövrdən dövlət xalqın yanında olduğunu bəyan etdi, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xalqa müraciətləri oldu, virusun daha geniş kütləni əhatə etməməsi üçün qabaqlayıcı tədbirlər həyata keçirildi. Dövlət başçısı bu dəfə də birlik nümayiş etdirərək evdə qalmağı məsləhət gördü, insanların sağlamlığının qorunması məqsədilə mühüm sənədlərə imza atdı.**

Prezident İlham Əliyevin humanist addımları həmişə olduğu kimi, bu dəfə də ilk günlərdən hiss edilməyə başladı. Əhalinin aztəminatlı təbəqələrindən biri də tələbə ordusudur. Dövlət başçısı hər zaman tələbə gənclərin yanında olub, qəbul etdiyi qərarlarda onların sosial-rifah halının yaxşılaşdırılması məsələləri üstünlük təşkil edib. Pandemiya zamanı həm cənab İlham Əliyevin, həm də birinci xanım Mehriban Əliyevanın biz tələbələrə arxa-dayaq olduğunu gördük. Dövlət bizim normal təhsil almağımız, gələcəyin bacarıqlı kadrları kimi yetişməyimiz üçün hər cür şərait yaradıb. Hətta imkansız və şəhid ailələrinin balalarının dövlət hesabına oxumaları təmin edilib, onlar illik təhsil haqlarını ödəməkdən azad olunublar. Bu xoşməramlı addımlar bizim öz ixtisasımız üzrə mükəmməl şəkildə yetişməyimiz üçün atılır. Çünki xalqın, dövlətin, gələcəyimizin savadlı kadrlara ehtiyacı vardır və hər zaman da olacaq. Dövlətin belə diqqət və qayğısı məsuliyyətimizi qat-qat artırır.

Dövlət başçısı tərəfindən pandemiya ilə əlaqədar məcburi olaraq bütün təhsil ocaqlarının bağlanması böyüməkdə olan nəslin sağlamlığının qorunması naminə edildi və tələbələrin illik təhsil haqqından azad olunması barədə göstərişin verilməsi isə əhali tərəfindən razılıqla qarşılandı. Bu mühüm qərarın qəbulu 20000 tələbənin və onlarla birgə valideynlərin də üzünün gülməsi deməkdir. Dövlət bu məqsədlə büdcədən 40 milyon manat ayırmışdır. Bütün bunlara görə nə qədər təşəkkür etsək də, azdır. Çünki ölkədə çox sayda maddi baxımdan əziyyət çəkən ailə var və dövlət başçımız dayanmadan öz köməyini heç kimdən əsirgəmir. Yeni imzaladığı bu qərar hər kəsə şamil olunmasa da, ehtiyacı olan ünvanlı ailələrə aid edilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qayğısı sayəsində gənclər möhtəşəm şəkildə yetişəcək, xalqımız hər bir çətinliyin öhdəsindən gələcək. Biz buna inanırıq, hər zaman dövlətin, Prezidentimizin yanında olduğumuzu bəyan edirik.

Cənab İlham Əliyev!

Azərbaycan gəncləri, tələbələri adından bir daha Sizə təşəkkürümüzü bildiririk.

*Nərmin BABAYEVA,*
*Bakı Avrasiya Universitetinin birinci kurs tələbəsi*

● Xoşməramlı fəaliyyət

## Könüllülərdən əsl DOST örnəyi

### "Harada həssas qruplar var, biz öz dəstəyimizlə oradayıq!"

**Prezident İlham Əliyevin 30 dekabr 2019-cu il tarixli sərəncamı ilə 2020-ci ilin Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilməsi ölkəmizdə bu hərəkatı xeyli gücləndirdi. Bu gün biz artıq könüllülüyü bir fəaliyyət sahəsi deyil, xüsusən gənclərimizin həyat tərzi kimi özünü göstərən və cəmiyyətdə önəmli rolu ilə seçilən ümummilli hərəkat kimi görürük. Könüllülük hərəkatı bu gün pandemiya ilə əlaqədar həssas qruplara yönələn dəstək tədbirlərində də əsl DOST örnəyi ilə diqqəti cəlb edir.**





Pandemiya ilə bağlı xüsusi karantin rejimi dövründə yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxma riski yüksək olan yaşı 65-dən yuxarı vətəndaşların infeksiyadan qorunması üçün onların evdən çıxmamalarına qərar verilib. Prezident İlham Əliyev deyib: "Biz vəziyyətin mənfi istiqamətdə inkişafının qarşısının alınması üçün də bu qabaqlayıcı tədbirləri görməklə özümüzü qoruyuruq. Biz dövlətimizi, xalqımızı, insanlarımızı, xüsusilə yaşlı insanları qorumalıyıq".

Beləliklə, dövlət başçısının tapşırığı ilə həyata keçirilən genişmiqyaslı sosial dəstək tədbirlərinin mühüm bir istiqaməti yaşı 65-dən yuxarı vətəndaşların sosial xidmətlə, ümumən qayğı mühiti ilə əhatə olunmasına yönəlib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bütün sosial xidmət işçiləri səfərbər edilməklə gücləndirilmiş iş rejimi şəraitində yaşı 65-dən yuxarı tənha şəxslərə evlərində gündəlik sosial xidmətlər göstərilir. "Sosial xidmət haqqında" qanuna uyğun olaraq, nazirliyin sosial xidmət işçiləri tərəfindən tənha yaşayan ahıl şəxslər evlərində gündəlik olaraq məişət xidmətləri ilə təmin edilirlər. Hazırda yaşı 65-dən yuxarı tənha şəxslərə də bu xidmətlərdən yararlanmaq imkanı verilib. Onlar bu xidmətlərlə təmin edilmək üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 142 - Çağrı Mərkəzinə zəng edərək qeydiyyata alınırlar.

Bu gün 9 sosial xidmət müəssisəsində 1000-dən çox şəxs stasionar şəraitdə sosial xidmətlərlə təmin olunmaqla bərabər, 15 minədək tənha yaşlı insan, eləcə də tənha əlilliyi olan şəxs də evlərində bu xidmətlərlə əhatə olunub. Onlara ev təsərrüfatı ilə bağlı işlərdə, öz vəsaitləri ilə əsas tələbat mallarının, dərman vasitələrinin alınmasında, kommunal ödənişlərin edilməsində və s. köməklik göstərilir.

Bütün bu işlərdə könüllülər də yaxından iştirak edirlər. Onlar daim sosial xidmətçilərlə birgə tənha yaşlı insanlara, eləcə də əlilliyi olan tənha şəxslərə yaxından dəstək olurlar. Belə gənclərin sırasında ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST Agentliyi) "Könüllü DOST" proqramının könüllüləri də var. 30-dan çox DOST könüllüsü tənha yaşayan yaşlı insanlarımıza ev işlərində fəallıqla, həvəslə dəstək olurlar. Onlar həmin tənha yaşlılara tez-tez baş çəkərək, istək və qayğıları ilə maraqlanır, hansı sahədə kömək lazım olduğunu soruşur və müvafiq istiqamətdə də yardımlar göstərirlər.

Eyni zamanda Yeni Azərbaycan Partiyasının könüllüləri, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri, Təhsil Nazirliyinin "Bir" Tələbə-Könüllü proqramının, Gənclər Fondunun nəzdindəki Gənclərin İnkişaf və Karyera Mərkəzinin və "SƏLİS" Birliyinin könüllüləri də tənha, yaşlı, həssas qrupdan olan insanlara evlərində sosial xidmətlər, qayğı və yardım göstərirlər.

Bununla yanaşı, qeyd edilən həssas əhali qruplarına sosial xidmətlərlə yanaşı, sosial tərəfdaşlar tərəfindən ərzaq yardımları da çatdırılır. Müxtəlif dövlət və özəl qurumlar tərəfindən bu istiqamətdə sosial aksiyalar geniş vüsət alıb. Təkcə bu ay Bakıda və ölkəmizin bölgələrində 30 minədək ərzaq payı tənha yaşlılara və əlilliyi olan tənha şəxslərə təqdim edilib. Ərzaq dəstəyi aksiyası hazırda da davam edir. Bu, həm də dövlət tərəfindən aparılan işlərə bir dəstəkdir, milli həmrəyliyin göstəricisidir.

Ərzaq yardımlarının evlərə çatdırılması işlərində də könüllülər yaxından iştirak edirlər. Onlar sosial xidmətçilərlə birgə bu ərzaq paylarını tənha yaşlılara və əlilliyi olan tənha şəxslərin evlərinə apararaq təqdim edirlər.

"Dost çətin gündə tanınar" deyiblər. Könüllülər də indiki şəraitdə tənha yaşlılarımıza əsl dost dəstəyi göstərirlər.

Könüllülərimizin yaşlı, əlilliyi olan insanlara hörmət və qayğı ilə yanaşmaları, bu sahədə fəallıq göstərmələri onların hər şeydən əvvəl milli-mənəvi dəyərlərimizə sədaqət hisslərinin əyani təsdiqidir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Biz birlikdə güclüyük!

## Azərbaycanda karantin rejimi yenidən yumşaldıldı

### Növbəti məhdudiyyətlərin aradan qaldırılması sanitar-epidemioloji vəziyyətdən asılı olacaq

Dünyanı öz əsirinə çevirən yeni növ koronavirus (COVID-19) infeksiyası ilə bağlı Azərbaycandakı mövcud sanitar-epidemioloji vəziyyət, digər dövlətlərdə tətbiq olunan preventiv tədbirlər, eləcə də Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri təhlil edilərək ötən gün ölkədə tətbiq olunan xüsusi karantin rejimi mayın 4-dən 31-dək uzadıldı. Bununla bərabər əhali arasında virusa yoluxma sürəti, xəstələrin sağalma dinamikası nəzərə alınaraq tətbiq edilən bir sıra məhdudiyyətlərin yumşaldılmasına dair qərar qəbul edildi.

Məhdudiyyətlərin yumşaldılması mövcud sanitar-epidemioloji vəziyyət, xəstə sayı və yoluxma sürəti əsas götürülərək, Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri, Abşeron rayonu və digər regionlar üzrə mərhələ ilə həyata keçirilir.

### "Karantin rejiminin yumşaldılması selektiv yanaşma ilə tətbiq ediləcək"

Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov Nazirlər Kabineti yanında Operativ Qərargahın keçirdiyi brifinqdə bildirib ki, karantin rejimi yumşaldılmış formada davam edəcək. Bu, xəstəliklə mübarizənin vəziyyətinə adekvat bir yanaşmadır: "Karantin rejiminin yumşaldılması selektiv yanaşma ilə tətbiq ediləcək. Yoluxma hallarının faiz etibarı ilə yüksək olduğu Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və Abşeron rayonunda karantindən çıxma yavaş sürətlə, digər ərazilərdə, yəni yoluxmanın minimum olduğu və hətta heç olmadığı yerlərdə yüksək sürətlə həyata keçiriləcək. Beləliklə, ölkə iki kateqoriyaya bölünür və hər birində karantindən çıxma müxtəlif sürətlərlə tətbiq edilir. Buna karantindən iki müxtəlif sürətlə çıxma yanaşması da demək olar".

İ.Məmmədov aprelin 27-dən etibarən ölkədə koronavirusa yoluxanların sayında artım müşahidə olunduğunu vurğulayıb. Onun sözlərinə görə, hazırda Azərbaycanda iki zidd tendensiya qeydə alınır. Sağalanların sayı yüksəkdir. Həmçinin yoluxanların sayında artım müşahidə olunur. Yəni müsbət və mənfi tendensiyalar paralel inkişaf edir. Lakin həkimlərin fədakarlığı hesabına vəziyyət nəzarət altındadır.

İbrahim Məmmədov qeyd edib ki, məhdudiyyətlərin bir qisminin yumşaldılması haqqında qərar verilsə də, Bakıda restoranların fəaliyyətinə qoyulan qadağa aradan qaldırılmayıb. Həmçinin paytaxtda SMS icazə sistemi də qüvvədədir. Bütün ölkə ərazisində toy və yas mərasimləri ilə bağlı qadağa qüvvədə qalır. Çünki bu, kütləvilik təşkil edən məsələlərdəndir. Sanitar-epidemioloji vəziyyətə əsasən narıncı rənglə qiymətləndirilən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonundan sarı rənglə qeyd olunan ölkənin digər ərazilərinə gediş və gəliş qadağandır. Lakin sarı zona və narıncı zona daxilində hərəkət sərbəstdir.

65 yaşdan yuxarı şəxslərin evdən çölə çıxması icazəsi məsələsinə isə hazırda baxılır. Bununla bağlı mayın 11-dən sonra qərar qəbul edilməsi planlaşdırılır.

### Tibbi maskadan istifadə məcburi olacaq

TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı brifinqdə çıxışı zamanı deyib ki, Azərbaycanda koronavirus aşkar edilməyən rayonlar var. Amma ətraf rayonlarda yoluxma faktları olduğundan hələ də həmin ərazilər sarı zona hesab edilir. Nə zaman həmin ərazilər təhlükədən çıxacaq və yoluxma sıfıra enəcək, o zaman həmin yerlər yaşıl zona elan ediləcək.



R.Bayramlı narıncı zona hesab edilən ərazilərdə yenidən neqativ istiqamətdə dəyişiklik olsa, Nazirlər Kabineti yanında Operativ Qərargaha müraciət ediləcəyini söyləyib.

TƏBİB sədri əlavə edib ki, təhlükə aradan qalxmayana qədər bir sıra ictimai yerlərdə, ictimai nəqliyyatda və digər zəruri məkanlarda qoruyucu vasitələrdən istifadə məcburi olacaq: "Operativ Qərargahın bir bölməsi kimi tibbi maskalardan istifadənin məcburi olmasına dair hökumətə müraciət etmişik. Qaydalar müvafiq metodiki göstərişdə öz əksini tapıb yayımlandıqdan sonra hər biri haqqında müfəssəl məlumat veriləcək. Tibbi maskalardan istifadənin zəruriliyi ilə bağlı qaydalara nəzarət isə aidiyyəti qurumların səlahiyyətindədir. Bu qaydalar məcburidirsə, təbii ki, arxasında cərimələr də dayanmalıdır".

Qurum rəhbəri vurğulayıb ki, insanlar arasında qohumları ziyarət və digər məqsədlə səfərlərin edilməsi məcbur olmadıqca məsləhət görülmür. Karantin qaydaları yumşaldılsa, yaxud gələcəkdə tədricən aradan götürüldükdən sonra belə hər bir şəxs səhhətinin təhlükəsizliyi naminə virusa qarşı tətbiq olunan zəruri tibbi-profilaktik qaydalara ciddi əməl etməlidir. Pandemiya dövründə ölkə ərazisində müvafiq strukturların, habelə ticarət və xidmət sahələrinin fəaliyyəti Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təqdim olunan zəruri sosial davranış və sanitar-epidemioloji qaydalara uyğun həyata keçirilməlidir.

### Azərbaycanda bir sıra sahələrdə xüsusi sanitar rejim tətbiq edilib

Nazirlər Kabineti ölkə ərazisində xüsusi karantin rejimi dövründə sanitariya vəziyyətinin tənzimlənməsi barədə qərar verib. Qərar Azərbaycan Respublikasının ərazisində koronavirus infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı tədbirlərin davam etdirilməsi məqsədilə verilib.

Koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində elan edilmiş xüsusi karantin rejimi dövründə aşağıda göstərilən sahələrdə və istiqamətlərdə xüsusi sanitar rejim tətbiq edilib:

- qida məhsullarının ticarəti üzrə fəaliyyət;
- ictimai-iaşə müəssisələrinin fəaliyyəti;
- turizm və hotelçilik fəaliyyəti;
- ictimai nəqliyyatın fəaliyyəti;
- vətəndaşların qəbulunu həyata keçirən qurumların fəaliyyəti;
- müxtəlif ticarət və xidmət sahələrinin, ofislərin fəaliyyəti.

### Karantin rejimini pozan 694 sürücü cərimələnib

Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə 01.05.2020-ci il saat 00:00-dan 02.05.2020-ci il saat 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 694 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Baş Dövlət Yol Polisi İdarəsinin məlumatına görə, ümumilikdə 01.04.2020-ci il tarixindən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 45445 hərəkət iştirakçısı inzibati qaydada cəzalandırılıb.

### Paytaxtın 200-dən çox küçəsi dezinfeksiya olunub

Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq, Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən paytaxtda koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizənin daha da genişləndirilməsi məqsədilə şəhərin bütün rayonlarında həyata keçirilən tədbirlər davam edir.

Görülən tibbi-profilaktik tədbirlər çərçivəsində Bakı Şəhər İcra Hakimiyyətinin strukturları tərəfindən dünən səhər saatlarından başlayaraq paytaxtdakı 200-dən çox əsas küçə və prospektlərdə kommunal təsərrüfat xidmətlərinin əməkdaşları və xüsusi texnikası tərəfindən xüsusi kimyəvi maddələrlə əlavə gücləndirilmiş dezinfeksiya işləri həyata keçirilib.

Daxili İşlər Nazirliyinin şəxsi heyəti keçirilən növbəti genişmiqyaslı dezinfeksiya işlərinə ənənəvi olaraq dəstək verib, nazirliyin xüsusi təyinatlı texnikası dezinfeksiya tədbirlərinə qatılıb. Həmçinin Bakı Nəqliyyat Agentliyinin əməkdaşları da tədbirdə iştirak edərək küçələrdəki dayanacaqlarda dezinfeksiya işləri həyata keçiriblər.

Gün ərzində paytaxtın kommunal xidmətlərinin 2000 nəfərdən çox əməkdaşı tərəfindən dezinfeksiyaedici aparatlarla səkilərdə, yol kənarlarında, park və meydanlarda, obyektlərin qarşısında, yolkənarı məhəccərlərdə də tibbi-profilaktiki işlər görülüb.

Bununla yanaşı, Mənzil-Kommunal Təsərrüfatı Departamentinin balansında olan yaşayış binalarında, buradakı ümumi istifadə yerlərində, giriş blokları və pilləkən marşlarında, sakinlərin daha çox istifadə etdiyi yerlərdən olan lift kabinələri və onun ətrafı, məişət tullantılarının atıldığı konteyner meydançalarında, həyət və yaşayış məhəllələrində, buradakı idman-əyləncə qurğularında tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlər həyata keçirilib.

### Dünyanın koronavirus mənzərəsi

Məlumat üçün bildirək ki, dünyada koronavirusa yoluxanların sayı 3,4 milyonu ötüb. Ölənlərin sayı 239 min 615, sağalanların sayı isə 1 milyon 83 min 816 nəfərdir.

Ən çox yoluxma və ölüm halları Avropa regionundadır. İkinci yerdə Cənubi və Şimali Amerika qərarlaşıb. Üçüncü yeri Qərbi-Sakit okean regionu tutur. Ölkələr üzrə hesabatda ən çox yoluxma halları ABŞ, İspaniya, İtaliya, Böyük Britaniya, Almaniya, Fransa, Türkiyə, Rusiya, İran və Çində qeydə alınıb. COVID-19 planetin 210 ölkə və bölgəsinə yayılıb.

Digər ölkələrlə müqayisədə Azərbaycanda koronavirusa yoluxma və ölüm halları az olsa da, təhlükə hələ sovuşmayıb. Mütəxəssislər epidemiyanın ikinci dalğasının baş verə biləcəyinə dair xəbərdarlıq edirlər. Elə buna görə də Nazirlər Kabineti yanında Operativ Qərargah bir daha hamını şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etməyə, yalnız zəruri hallarda evdən çıxmağa, ictimai yerlərdə digər şəxslərlə minimum kontaktda olmağa, dövlət tərəfindən həyata keçirilən tədbirlərə yaxından dəstək göstərməyə, Operativ Qərargahın tələb və tövsiyələrinə əməl etməyə çağırır.

Bildirilir ki, növbəti mərhələdə sanitar-epidemioloji vəziyyətdən asılı olaraq mövcud məhdudiyyətlərdən daha bir qisminin aradan qaldırılması ilə bağlı qərar veriləcək. Lakin COVID-19 virusuna yoluxma dinamikası və xəstəliklə bağlı ölkədəki vəziyyət zərurət yaradarsa, xüsusi karantin rejiminin yenidən sərtləşdirilməsi mümkündür.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## Azərbaycanı dünyanın "yaşıl zona"sına çevirək

### Dövlətimizin koronavirusla həlledici mübarizəsinə vətəndaş dəstəyi verək

Yer üzündə COVID-19 ilə mübarizə davam edir. Tibb alimləri virusu yox etməyin çarəsini, iqtisadçılar bu bəlanın yaratdığı böhrandan necə az itki ilə çıxmağın yollarını düşünürlər...

Ölkələr qapılarını bağlayıb, hərə öz daxilində koronavirusla döyüşə atılıb. Karantin rejimləri tətbiq olunub, sosial izolyasiya tədbirləri həyata keçirilir və yoluxmanın sürətinin qarşısına keçilmək istənir. Təəssüf ki, hələlik "tac"lı bəla ram edilməyib və canlar almaqda, vahiməsini sürdürməkdə davam edir.

Virusun Uhanda alovlandığı ilk günlərdən etibarən Azərbaycanda da ciddi tədbirlərə start verildi. Belə ki, Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı, ölkəyə müasir tibbi laboratoriyalar alındı. Həmçinin sərhədlərin bağlanması, yoluxmanın sürətini azaltmaq üçün xüsusi karantin rejiminin tətbiq olunması, xaricdə qalan vətəndaşlarımızın ölkəyə qaytarılması, karantin müddətində aztəminatlı, kimsəsiz və yaşı 65-dən yuxarı olan tənha insanlara yardım edilməsi, koronavirusun birbaşa təsir etdiyi sahələr üzrə sahibkarlara dəstək verilməsi pandemiyanın fəsadlarını xeyli azaltdı. Azərbaycan hökuməti tərəfindən COVID-19-a qarşı dərhal həyata keçirilən bu tədbirlər müsbət təsirini göstərməyə başladı.

### "İlk gündən bizim seçimimiz insanların həyatının qorunması oldu"

Prezident İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti ilə videokonfrans zamanı səsləndirdi ki, ölkəmiz koronavirusla bağlı ilk gündən real vəziyyətə əsaslanan tədbirlər görməyə başladı və bu sahədə müsbət nəticələr əldə etdi: "Məhdudlaşdırıcı tədbirlərin tətbiqi qərarı asan olmamışdır. Biz anlayırdıq ki, insanlar üçün narahatlıq yaranacaq, iqtisadi inkişafımıza böyük zərbə dəyəcək, halbuki bu ilin göstəriciləri olduqca ümidverici idi. Lakin bizim iki variantımız var idi. Birinci variant insanların həyatını və sağlamlığını qorumaq, ikinci variant isə iqtisadiyyatın xilas edilməsi prioriteti idi. Bu səbəbdən ilk gündən bizim seçimimiz insanların həyatının qorunması oldu. Gördüyümüz bütün işlərin məqsədi budur və bu istiqamətdə səylərimizi tam səfərbər etmişik. Biz 120 mindən artıq test həyata keçirmişik və aparılan testlərin adambaşına düşən sayına görə aparıcı yerlərdəyik.

Vaxtaşırı sərtləşdirdiyimiz məhdudlaşdırıcı tədbirlərin müsbət nəticəsi olmuşdur və artıq iki həftədir ki, bizdə müsbət dinamika var. Yəni sağalanların sayı yoluxanların sayından artıqdır. Ölüm faizinin nisbətən aşağı olması onu göstərir ki, işlər müsbət istiqamətdə aparılır".

### Təhlükənin sovuşması əhvali-ruhiyyəsi yoluxma sayını artıra bilər

Aprelin 27-dən etibarən koronavirus təhlükəsi ilə əlaqədar olaraq Azərbaycanda tətbiq olunmuş məhdudiyyətlərin əksəriyyəti yumşaldılıb.

Amma ötən bu müddətlə bağlı mütəxəssislərin müşahidələri belə bir nəticəyə gəlməyə əsas verir ki, hazırda xüsusi karantin rejiminin yumşaldılması əhalidə təhlükənin sovuşması əhvali-ruhiyyəsini yaradıb.

TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı bildirib ki, son günlər Gəncə və Lənkəran şəhərlərində yeni növ koronavirus infeksiyasına yoluxmanın artması müşahidə edilir: "Burada tibb müəssisələrinin işində korreksiyaya ehtiyac var. Son günlər bu işin nəticəsini görürük və vətəndaşlarımızı daha məsuliyyətli olmağa dəvət edirik".

### Koronavirusun olmadığı ərazi

Hazırda Azərbaycan iki - "sarı" və "narıncı" zonalara bölünüb. "Sarı zona" 50-yə qədər, "narıncı zona" isə yoluxma sayı 50-dən çox olan ərazilər hesab olunur. 100-dən yuxarı yoluxmanın olduğu ərazilər isə "qırmızı zona"lardır. "Sarı zona"da karantin rejimi ləğv edilib, "narıncı zona"da isə SMS ilə icazə mexanizmi qalır.

TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı bildirib ki, ölkəmizdə koronavirus aşkarlanmayan rayonlar da var. Ancaq qonşu rayonlarda da koronavirus aşkarlanmazsa, yalnız o halda həmin zonanı "yaşıl zona" elan edə bilərik: "yaşıl zona" bir rayondan asılı deyil. Ən azı xəstəliyin iki inqubasiya dövrü və ətraf rayonlar nəzərə alınaraq, hansısa zonanı "yaşıl zona", yəni koronavirusun olmadığı ərazi elan edə bilərik".

TƏBİB-in sədri qeyd edir ki, "sarı zona"da qabaqlayıcı, "narıncı zona"da orta səviyyəli, "qırmızı zona"da isə sərt karantin qaydaları tətbiq ediləcək. Hələlik Azərbaycanda "sarı zona" və "narıncı zona" var.

### Mübarizənin yeni mərhələsi

Bəli, indi koronavirusla mübarizənin yeni mərhələsinə qədəm qoymuşuq. Bu gözəgörünməz və təhlükəli düşmənin adi bir məsuliyyətsizlikdən necə böyük fəlakətlərə yol açdığını da bilirik.

Bilirik ki, COVID-19-a qarşı görülən tədbirlərin, əldə olunan müsbət irəliləyişlərin davam etməsi həm də birbaşa vətəndaşlarımızın sosial məsuliyyətindən və qoyulan qaydalara riayət etməsindən asılıdır.

Bu da bir həqiqətdir ki, koronavirusun yoluxma sürətinin insanlar arasında yüksək olmasına baxmayaraq, adi gigiyenik tələblərə və sosial izolyasiya qaydalarına riayət etməklə ona yoluxmamaq və qorunmaq mümkündür.

Xüsusilə də maskadan istifadə, əllərin mütəmadi yuyulması, dezinfeksiya edilməsi və sosial məsafənin qorunması çox vacibdir.

### Bütün düşmənlərə qalib gəlib...

Dünya üzrə aparılan müşahidələr, statistikalar bu virusa yoluxmanın yaşı 65-dən yuxarı olan şəxslərdə daha ağır nəticələrə yol açdığını göstərir. Çünki bu yaş qrupunda olan insanlarda digər xroniki xəstəliklərə daha çox rast gəlindiyi üçün onlarda virusa qarşı müqavimət daha zəif olur. Buna görə də həmin şəxslərin sağlamlığının qorunması da bizlərdən asılıdır. Tətbiq edilən qaydalara uyaraq, yoluxma riskini azalda, həm özümüzün, həm də böyüklərimizin həyatını xilas edə bilərik.

Diqqətli olmağımız, lüzumsuz yerə küçəyə çıxmamağımız özümüzün və sevdiklərimizin həyatını, ümumilikdə xalqımızı xilas etmiş olar

Ölkəmizdə həyat normal axara düşər, məktəblərə, bağçalara yollanarıq, işlərimizə dönər, konsertlər verər, idman yarışlarına qatılarıq. Ən ümdəsi, gələcəyə doğru yol alarıq, bütün viruslara, düşmənlərə qalib gəlib zəfər nəğməsini Qarabağda oxuyarıq...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## İmmunizasiya uşaqların COVID-19 virusuna qarşı müqavimətini artırır



2020-ci il aprelin 20-26-sı Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən Avropa İmmunlaşdırma Həftəsi elan olunub. Azərbaycan da bu təşəbbüsə qoşularaq ötən həftə "İmmunlaşdırma həftəsi" keçirdi. Gəlin, peyvəndlərin körpələrin və uşaqların həyatına müsbət təsirini və immunizasiya nailiyyətlərinə diqqət yetirək.

Peyvəndləmə valideynlərin iki yaşa qədər körpələrini çox ciddi xəstəliklərdən qoruduğu ən yaxşı yoldur. Peyvəndlər vasitəsilə qarşısı alına bilən xəstəliklər (hepatit B, vərəm, polimielit, difteriya, göyöskürək, tetanus, B tipli hemofil infeksiyası, pnevmokok infeksiyası, qızılca, parotit və məxmərək) uşaqlar üçün, xüsusilə də erkən yaşlı körpələr və məktəbəqədər yaşda olan uşaqlar üçün çox ciddi, hətta ölümcül ola bilər. İmmunlaşdırma uşaqların bu xəstəliklərə tutulmaması üçün etibarlı təbii müdafiə vasitələrini inkişaf etdirməyə kömək edir.

Peyvəndlərin körpənizin bədənində xəstəliklərə qarşı qoruyucu antitellərin hazırlamasına kömək etməsi həftələr çəkə bilər. Daha yaxşı müdafiənin təmin edilməsi üçün bəzi peyvəndlərin bir neçə dozası, təkrari vaksinasiyası tələb olunur. Əgər körpələrinizin ciddi bir xəstəliyə məruz qalmayacağını düşünərək yalnız xəstəliyin yayılması zamanı peyvənd etdirsəniz, o zaman peyvəndin işləməsi üçün kifayət qədər vaxt olmaya bilər.

Xoşbəxtlikdən əksər valideynlər uşaqlarını peyvənd etdirməyə önəm verirlər. Bununla yanaşı, bəzən uşaqlar vaksinlərin hamısını almır və bu səbəbdən də tam qorunmuş olmurlar. Ona görə də uşaqların tövsiyə olunan peyvənd təqviminə uyğun bütün peyvənd dozalarını qəbul etmələri vacibdir. Bir peyvəndin bütün dozasını almamaq uşağı ciddi xəstəliklərə tutulmağa həssas edir, müdafiəsiz buraxır. Bunu nəzərə alaraq valideynlər uşaqların immunizasiya cədvəllərini bilməli və vaxtlı-vaxtında peyvəndləri etdirməlidirlər.

Qızılca peyvəndi qarşısı alına bilinən xəstəliklərə təsir göstərmək baxımından bir nümunədir. Qızılca hələ də dünyanın bir çox yerində yayılmış xəstəlikdir. Bu virus xəstəliyi yüksək yoluxuculuq qabiliyyətinə malikdir və o, peyvəndləşmə aparılmayan bir cəmiyyətdə asanlıqla yayıla bilir. Qızılca xəstəliyi kiçikyaşlı uşaqlarda çox ağır keçməklə sətəlcəm, ensefalit kimi fəsadlar verə və hətta ölümlə də nəticələnə bilər. Peyvəndlər ilə qarşısı alına bilən bəzi xəstəliklər, məsələn, göyöskürək və su çiçəyi bəzi ölkələrdə hələ də yayılır.

Uşaqlıq dövründə immunizasiya mühüm məsələdir, çünki bu, uşaqların potensial həyati təhlükəsi olan xəstəliklərə məruz qalmadan əvvəl onları immunitet ilə təmin edir. İmmunitet - orqanizmin xəstəliyin qarşısını alma qabiliyyətidir. Körpəniz doğulanda onun immun sistemi tam inkişaf etməmiş olur və buna görə də infeksiyalara daha çox məruz qalma riski var. Uşaqlar onları əhatə edən mühitdə hər gün minlərlə mikrobların təsirinə məruz qalırlar. Bu, yedikləri yemək, nəfəs aldıqları hava və ağızlarına qoyduqları şeylər nəticəsində olur. Körpələr bir çox mikroblarla mübarizə apara biləcək immun sistemi ilə doğulsalar da, bəzi xəstəliklər var ki, onların öhdəsindən gələ bilmirlər. Buna görə də onların immunitetlərini möhkəmlətmək üçün peyvəndlərə ehtiyac vardır. Vaksinlər xəstəliyə qarşı immunitetin etibarlı şəkildə inkişaf etdirilməsinə kömək edir və orqanizmin təbii müdafiəsi vasitəsilə infeksiyanın uşağınıza yoluxma riskini azaldır.

Uşağın immun sisteminin bəzi ciddi xəstəliklərin törədicilərini tanımağa və onlarla mübarizə aparmasına kömək etmək üçün peyvəndlərin tərkibində çox az miqdarda antigendən istifadə edilir. Antigenlər mikrobların bir hissəsi olub orqanizmin immun sisteminin işləməsinə səbəb olur. Uşağın güclü immuniteti varsa, zərərli mikroorqanizmlər ona asanlıqla yoluxa və xəstə edə bilməz.

Uşağın immun sistemini iki yolla gücləndirə bilərik: daha yaxşı qidalandırma və immunizasiya. Uşaqları düzgün və yaxşı qidalandırma infeksiyaların qarşısını almağa kömək edir. Məsələn, qızılca və ishal xəstəlikləri yaxşı qidalanan uşaqlarda yüngül formada keçir. İshal xəstəliyi yaxşı qidalanan uşaqlarda zəif qidalananlara nisbətən daha az olur. Uşaqların düzgün qidalanması üçün aşağıdakı beş qaydaya riayət olunmalıdır:

1. Körpə uşaqlara ən azı 18 ayına (yaxşı olar ki, 2 yaşına) kimi ana südü verilsin;
2. Altı aylığından başlayaraq körpələrə əlavə qidalar verilməli;
3. Əlavə qidalar verilərkən sıyığın və ya supun içərisinə zülal tərkibli qidalar (süd, yumurta, çəkilmiş ət, yaxud qara ciyər) daxil edilməli;
4. Altı aylığından sonra körpələrə hər gün qoruyucu qidaların verilməsinə başlanılmalıdır. Bunlar meyvə və tərəvəzlərdir ki, tərkibləri minerallar və vitaminlərlə zəngindir;
5. Kiçikyaşlı uşaqlara yemək gündə dörd dəfədən az verilməməlidir.

Uşaqların qidalanmasının yaxşılaşdırılması infeksiyanın qarşısını almağa kömək edir. İmmunizasiya məqsədilə uşağa vaksinlər verə bilərik. Qızılca, poliomielit, tetanoz, difteriya, göyöskürək, vərəm və s. qarşı faydalı vaksinlər mövcuddur. İshal kimi bir sıra digər xəstəliklərə qarşı isə vaksin yoxdur. Hazırkı pandemiyaya səbəb olan COVID-19 virusuna qarşı hələ ki, vaksin mövcud deyil. Amma bütün dünyada alimlər tezliklə belə bir vaksin əldə etmək üçün intensiv çalışırlar.

Uşaq ömründə yalnız bir dəfə göyöskürək xəstəliyi keçirir və bir daha bu xəstəliyə tutulmur. Çünki uşağın orqanizmində göyöskürək çöplərinə qarşı antitellər və qazanılma immunitet yaranır. Antitellər qanda olan xüsusi zülallardır, xəstəliyə səbəb olan orqanizmlər və ya orqanizmlərin yaratdığı toksinlər (zəhərlər) ilə "mübarizə aparır". Antitellər müvafiq mikroorqanizmlərə yapışır və onları məhv edir. Antitellər həm də toksinlərə yapışa bilir və zərər vermələrini dayandıra bilirlər. Antitellərin toksinlərlə mübarizə aparan xüsusi növü antitoksinlər adlanır. Fərqli bir növ antitel müəyyən bir orqanizm və ya toksinlə mübarizə aparır. Məsələn, qızılcaya qarşı olan antitellər yalnız qızılca virusu ilə mübarizə aparır, malyariya ilə mübarizə edə bilmirlər. Tetanusa qarşı antitoksinlər difteriyaya qarşı faydalı deyil. Buna görə də uşaqlara peyvənd təqvimində qeyd olunan bütün vaksinlər edilməlidir.

Uşaq qızılca xəstəliyinə tutularkən orqanizm qızılca virusuna qarşı xüsusi antitellər hazırlamağa başlayır və bu proses ömürlük davam edir. Nəticədə uşaq qızılca virusuna qarşı həssas olmur və bir daha yenidən qızılca xəstəliyinə tutulmur. Uşaq öz antitellərini yaratdıqda o, aktiv immunitetə malik olur. Uşaqlar iki yolla aktiv şəkildə immunitet qazana bilərlər: xəstəliyin özü ilə xəstələndikdə və ya ona həmin xəstəliyə qarşı vaksin verildikdə.

Peyvəndlərin uşaqlar üçün təhlükəsiz və təsirli olduğuna əmin olmaq üçün onlar ciddi sınaqdan keçirilir. Zərərli orqanizmlər fabrikdə böyüdülür və öldürülür (ölü vaksinlər), yaxud da zəiflədilir (canlı vaksinlər). Ölü vaksinlərin tərkibində ölmüş orqanizmlər və ya anatoksinlər (zərərləşdirilmiş bakterial toksinlər) olur. Göyöskürəyə qarşı vaksində ölü bakteriya vardır. Difteriya və tetanusa qarşı vaksinlərin tərkibi anatoksindən ibarətdir. Difteriya, göyöskürək, tetanusa qarşı olan AGDT vaksini ölmüş bakteriya və anatoksinin bir yerdə qarışığından hazırlanır. BCG (vərəm əleyhinə), poliomielit və qızılcaya qarşı peyvəndlər isə canlı vaksinlərdir. Vaksinlərin tərkibində olan mikroorqanizmlər zəif və ya ölü olduqları üçün zərər vermirlər. Uşağa bir peyvənd edildiyi zaman onun bədənində vaksinin tərkibindəki ölü və ya zəiflədilmiş zərərsiz orqanizmlərə qarşı antitellər hazırlanır. Bu zaman adətən heç bir simptom olmur, yaxud da yüngül simptomlar, məsələn temperaturun azacıq qalxması qeyd oluna bilər. Uşağın bədənində hazırlanan antitellər həmin xəstəliklərin törədicilərinə qarşı mübarizə aparır və beləliklə, onun xəstələnməsinin qarşısını alır. Uşaqda xəstəlik nəticəsində yaranan immunitet təbii aktiv immunitetdir. İmmunitet yaratmaq üçün peyvənd edildikdə isə süni aktiv immunitet meydana çıxır.

Poliomielit poliovirusun yaratdığı yüksək yoluxucu bir xəstəlikdir. Sinir sisteminə təsir edir və bir neçə saat ərzində iflicə və ya hətta ölümə səbəb ola bilər. Poliomielit əsasən 5 yaşınadək olan uşaqlara təsir göstərir. Poliomielit aşağıdakı ağır fəsadlara səbəb olur:

- Poliomielitə yoluxan hər 200 nəfərdən birində iflic inkişaf edir (əsasən ayaqlarda);
- İflic olmuş şəxslərin 5-10% -i virusun yaratdığı tənəffüs əzələlərinin iflici nəticəsində ölür.

Poliomielitin müalicəsi yoxdur, yalnız immunizasiya yolu ilə onun qarşısını almaq mümkündür. Təhlükəsiz və effektiv oral polio peyvəndi (OPV) vardır ki, ondan dəfələrlə istifadə edildiyi təqdirdə uşağı bütün ömür boyu poliomielitdən qoruyur. Tərkibində canlı bakteriyalar olan OPV vaksinləri ilk dəfə 1950-1960-cı illərdə meydana çıxmışdı. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, OPV vaksinləri istifadə olunduğu gündən bəri dünyada poliomielit hallarının sayı 99% -dən çox azalmışdır. Halbuki 20 il bundan əvvəl poliomielit hər gün 1000 uşaqda iflicə səbəb olurdu. Hər il on minlərlə uşaq iflic keçirdiyinə görə əlil qalırdı. 2010-cu ildə 1349 uşaq iflic olmuşdur.

Alimlər müşahidə etmişlər ki, OPV vaksinləri alan şəxslərdə digər virus xəstəliklərinə yoluxma halları da xeyli azalmışdır. Onlar bu halı OPV vaksinlərinin viruslar əleyhinə güclü immunitet yaratması ilə izah edirlər. Günümüzdə qarşılaşdığımız pandemiya zamanı COVID-19 virusuna yoluxmuş uşaqlarda xəstəliyin çox yüngül formada keçməsinin səbəbinin bununla əlaqədar olduğunu ehtimal etmək olar.

Qeyd olunanlardan belə bir nəticə çıxara bilərik ki, uşaqların immun sistemini gücləndirmək hər bir valideynin əsas vəzifələrindən biridir.

***Sevil QƏNBƏROVA,***
***Azərbaycan Tibb Universitetinin II Uşaq xəstəlikləri kafedrasının əməkdaşı, tibb elmləri namizədi***

# AMB-nin maliyyə bazarlarına dəstək tədbirləri qabaqcıl beynəlxalq təcrübəyə əsaslanır



Əvvəli 1-ci səh.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin eksperti Ayaz Museyibov bununla bağlı bildirir ki, Azərbaycanın maliyyə-bank sisteminin ümumi tematikası onun ötən illər ərzində bütün əsas elementlər - maliyyə dərinliyi, maliyyə sabitliyi, maliyyə effektivliyi və maliyyə inklüzivliyi üzrə kifayət qədər uğurlu inkişaf tendensiyaları nümayiş etdirdiyini göstərir: "Hazırda ölkənin bank sektoru 2015-ci ilin neft böhranından sonra mötədil artım tendensiyası nümayiş etdirməklə sabitləşmə və inkişaf fazası arasında "var-gəl" etməkdədir. Örnək olaraq misal çəkim ki, cari dövrdə fiziki şəxslərin banklardakı əmanətlərinin həcmi 8,2 milyard, ümumi depozitlərin həcmi isə 24,9 milyard manatı ötmüşdür və 2016- 2017-ci illərin neqativ istiqamətli tendensiyası son iki il ərzində hər iki göstərici üzrə artım dinamikası ilə əvəz olunmuşdur. Bir sıra keyfiyyət göstəriciləri də, yəni xarici valyutaların xüsusi çəkisi böhran dövrü ilə (2015-2016-cı illər) müqayisədə 2 dəfəyə yaxın azalmış, tələb olunan depozitlərin xüsusi çəkisinin artım tendensiyası demək olar ki, son 1 il ərzində sabitləşmə meyli nümayiş etdirmişdir. Dünya Bankının məlumatlarının analizi də bir sıra region ölkələri ilə müqayisədə Azərbaycanın bu istiqamətdə əldə etdiyi nəticələrin nikbin olduğunu göstərir. Əlbəttə ki, makroiqtisadi sabitlik gücləndikcə və maliyyə sisteminin sağlamlaşdırılması tədbirləri icra edildikcə keyfiyyət göstəricilərinin daha da yaxşılaşması üzrə potensial imkanlar daha da artacaq".

Kredit siyasəti üzrə dəstək tədbirlərindən söz açan ekspert qeyd edir ki, bu tədbirlərin ən mühüm istiqamətlərindən biri 1 mart 2020-ci il tarixinə keyfiyyəti qənaətbəxş olan və dövlət fondlarının vəsaitləri hesabına verilmiş kreditlərin, eləcə də İpoteka və Kredit Zəmanət Fondunun kreditlərinin restrukturizasiyası, yəni güzəştli şərtlərlə əvəz edilməsidir. Həmçinin fiziki şəxslər və sahibkarlıq subyektləri üzrə kredit öhdəliklərinin tam və ya qismən gecikdirilməsi halında borcludan əlavə cərimə faizi, dəbbə pulu və digər ödənişlərin tutulmaması banklara tövsiyə olunmuşdur. Ekspert bu yerdə bir məqamı xüsusi qeyd edir: sahibkarlıq subyektləri üzrə bu tədbirin icrası, yəni istər kredit faizlərinin subsidiyalaşdırılması, istərsə də restrukturizasiya prosesinin özü real sektorun kreditlərə çıxış imkanlarına müsbət təsir göstərəcəkdir. Hazırda ölkədə real sektorun maliyyələşdirilməsində ticarət və xidmət, sənaye, nəqliyyat və rabitə sektorlarının nisbətən yüksək xüsusi çəkiyə malik olduğunu deyən A.Museyibov kənd təsərrüfatına ayrılan kreditlərin ümumi kredit portfelində xüsusi çəkisinin cəmi 3,4 faiz təşkil etdiyini nəzərə çatdırır.

Ekspert daha sonra deyir: "Dəstək proqramında requlyativ çərçivənin sistem əhəmiyyətli banklar və digər banklar üzrə ayrılması qanunvericiliyə edilmiş son dəyişikliklərə uyğun olaraq, müvafiq banklarla bağlı tənzimləmə çərçivəsinin fərqliliyi ilə əlaqədardır. Sistem əhəmiyyətli banklar üzrə məcmu kapitalın adekvatlıq əmsalının 1 yanvar 2021-ci ilədək 12 faizdən 11, digər banklar üzrə isə 10 faizdən 9 faizədək azaldılması nəzərdə tutulub. Burada bir arayış verək ki, sistem əhəmiyyətli banklar aktiv və öhdəlikləri, qiymətli kağızlar, ödəniş sistemləri, birjadan kənar əməliyyatlar kimi amillər nəzərə alınmaqla Azərbaycanın maliyyə-bank sistemi üçün kritik infrastruktur əhəmiyyətə malikdir. Ümumilikdə isə kapitalın adekvatlığı indikatorları üzrə banklara 5 əsas istiqamətdə mühüm dəstək verilmişdir".

Bildirilir ki, tədbirlərin mühüm istiqamətlərindən biri kimi keyfiyyəti qənaətbəxş olan və pandemiya ilə əlaqədar kredit borcunu gecikdirən borcalanlar üzrə (həm fiziki şəxslər, həm də sahibkarlıq subyektləri) neqativ məlumatların 30 sentyabr 2020-ci ilədək kredit bürosuna xüsusi qeydlə təqdim olunması nəzərdə tutulub. Bu isə borcalanların kredit tarixçəsinin pisləşməsinin qarşısını alacaq.

Rəqəmsallaşma istiqamətində dəstək tədbirlərindən danışan ekspert deyir ki, son illər ölkədə rəqəmsal iqtisadiyyatın qurulması istiqamətində xüsusi tədbirlər icra edilmiş, dijital ödənişlər üzrə dövlət proqramı qəbul olunmuşdur: "Yeni dəstək proqramında da nağdsız ödəniş xidmətlərinin stimullaşdırılması və bu xidmətlər üzrə xərclərin azaldılması məqsədilə 30 sentyabr 2020-ci il tarixinədək banklararası ödəniş sistemlərində banklardan tutulan xidmət haqlarının 50 faizədək endirilməsi və buna müvafiq banklar tərəfindən də müştərilərinə qarşı eyni güzəştlərin təşviqi və sahibkarlıq subyektlərinin ödəniş kartları ilə ödənişlərinin qəbulu üzrə xərclərinin azaldılması məqsədilə ekvayer tariflərinin 50 faizədək endirilməsinin təşviqi nəzərdə tutulmuşdur. Yeni trendlər bu vaxta qədər mövcud olan beynəlxalq metodologiyaları və inkişaf paradiqmalarını dəyişir. Buna uyğun olaraq sözügedən dəstək xüsusi əhəmiyyətə malikdir və ölkə banklarının rəqəmsal tranformasiya istiqamətində tədbirlərin icrasını sürətləndirəcəyi də gözləntilər sırasındadır".

İqtisadçı sonda qeyd edir ki, ümumilikdə beynəlxalq qabaqcıl təcrübədə artıq bir sıra ölkələr tərəfindən tətbiq olunmuş uğurlu yanaşmaları özündə ehtiva edən bu sənəddə bank sistemi ilə bərabər, sığorta və kapital bazarı iştirakçılarına da likvidlik dəstəyinin verilməsi, requlyativ tətil, məsafədən xidmətlərin təşviqi, inzibati prosedurların azaldılması üzrə tədbirlər də nəzərdə tutulmuşdur.

***Raqif MƏMMƏDLİ, "Azərbaycan"***

# Uşaq Paralimpiya Komitəsi işini onlayn davam etdirir

## "Azercell"in dəstəyilə fəaliyyət göstərən komitə virtual məşqlər keçir

"Azercell"in dəstəyilə fəaliyyət göstərən Uşaq Paralimpiya Komitəsi sağlamlıq imkanları məhdud uşaqları dəstəkləməkdə davam edir. Belə ki, COVID-19 pandemiyası ilə əlaqədar karantin rejiminin tətbiq olunduğu dövrdə evdən çalışan Uşaq Paralimpiya Komitəsinin məşqçiləri virtual təlimlər təşkil edir, uşaqlarla onlayn qaydada məşğul olurlar.




Dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da bütün kütləvi tədbirlərin təxirə salındığı, idman müəssisələrinin fəaliyyətini dayandırdığı bir zamanda bu məşqlər uşaqların aktivliyinin qorunub saxlanmasına, indiki çətin dövrdə onlarda psixoloji problemlərin, ruh düşkünlüyünün yaranmasının qarşısının alınmasına xidmət edir.

Uşaqlar üçün cüdo, üzgüçülük, parataekvando, pauerliftinq, boccia, qolbol, stolüstü tennis, əlil arabasında idman rəqsi daxil olmaqla 9 idman növü üzrə məşqlər keçirilir. Komitənin səyi ilə 7 il ərzində sağlamlıq imkanları məhdud 200-dən artıq uşağın kütləvi idman tədbirlərində fəal iştirakına nail olunub. Peşəkar məqçilərin dəstəyilə uşaqlar yerli və beynəlxalq səviyyəli yarışlarda iştirak edib, yüksək nəticələr qazanıblar. Son 6 ay ərzində daha 40-a yaxın sağlamlıq imkanları məhdud uşaq komitənin sıralarına qatılıb.

Qeyd edək ki, Uşaq Paralimpiya Komitəsi 2013-cü ildə beynəlxalq təcrübədə ilk dəfə olaraq Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin nəzdində yaradılıb. Komitənin fəaliyyətinin əsas məqsədi sağlamlıq imkanları məhdud uşaqların idmana cəlb olunması yolu ilə ehtiyat idmançıların hazırlanması, onların abilitasiya və reabilitasiya yolu ilə cəmiyyətə inteqrasiyasının təmin edilməsidir. Sosial layihələrə xüsusi diqqət ayıran "Azercell Telekom" MMC 2014-cü ildən etibarən bu önəmli təşəbbüsə öz töhfəsini vermək üçün komitənin fəaliyyətini dəstəkləyir.

# Şahdağ Milli Parkında daha bir zubr balası dünyaya gəlib

IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF-nin Azərbaycan ofisi tərəfindən həyata keçirilən zubrların reintroduksiya layihəsi çərçivəsində Azərbaycana gətirilən zubrlardan daha birinin balası dünyaya gəlib. Beləliklə, zubr balalarının sayı ikiyə çatıb. Bala sağlamdır və yerli şəraitə uyğunlaşaraq sürüyə qoşulub. AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəis müavini Arzu Səmədova deyib.

O, qeyd edib ki, Şahdağ Milli Parkı ilə IDEA İctimai Birliyi arasında imzalanmış əməkdaşlıq sazişinə əsasən, nəsli kəsilmiş zubrların bərpası, onların ölkə təbiətinə reintroduksiya olunması və artırılması məqsədilə ötən ilin mayında Şahdağ Milli Parkının İsmayıllı bölməsinin ərazisinə Fransa və Belçika zooparklarından 12 baş zubr gətirilərək təbiətə buraxılıb. Sevindirici haldır ki, hazırda onların sayı 14 -ə çatıb.

# İrandan Azərbaycana 43 kiloqrama yaxın narkotik vasitənin gətirilməsinin qarşısı alınıb

Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsi istiqamətində həyata keçirilmiş əməliyyat-axtarış və qoşun tədbirləri nəticəsində ölkə ərazisinə külli miqdarda narkotik vasitənin qeyri-qanuni gətirilməsinin qarşısı alınıb. DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, mayın 1-də "Lənkəran" sərhəd dəstəsinin xidməti ərazisində Astara rayonunun Züngüləş kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində işarəverici qurğudan dövlət sərhədinin pozulması barədə siqnal daxil olub. Sərhəd zastavası dərhal "silaha" komandası ilə qaldırılaraq həmin sahə istiqamətində hərəkət edərək İran İslam Respublikasından Azərbaycan Respublikasına doğru və əks istiqamətdə 1 nəfərə məxsus izlər aşkarlayıb.

Həmin ərazi dərhal qapadılaraq axtarış tədbirləri keçirilib, nəticədə 3 ədəd qara rəngli idman çantası - içərisində ümumi çəkisi 42 kiloqram 700 qram narkotik vasitə (9 kiloqram heroin, 6 kiloqram 700 qram metamfetamin, 4 kiloqram 100 qram marixuana, 19 kiloqram 300 qram həşiş, 1 kiloqram 800 qram "metadon M-40" həbi və 1 kiloqram 800 qram "preqabalin") aşkar olunaraq götürülüb.

Narkotik vasitələrin sifarişçisinin müəyyənləşdirilməsi və cinayət məsuliyyətinə cəlb edilməsi istiqamətində Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində 5 nəfər şübhəli şəxs qismində saxlanılıb. Saxlanılan şəxslərin Astara rayonunun Kijəbə qəsəbə sakinləri - 1981-ci il təvəllüdlü Əhmədov Fərhad Vəliağa oğlu, 1989-cu il təvəllüdlü Teymurov Elməddin Razim oğlu, 1984-cü il təvəllüdlü Fərzizadə Anar Nizaməli oğlu, 1995-ci il təvəllüdlü Abdullayev Nurlan Tofiq oğlu və 1974-cü il təvəllüdlü Babayev Dönməz Hətəm oğlu olduqları müəyyənləşdirilib.

Araşdırma zamanı saxlanılmış şəxslər törətdikləri cinayət əməlini etiraf ediblər. Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

***"Azərbaycan"***

# Şirvan, Naftalan, İmişli və Bərdə İcra Hakimiyyəti başçılarının inzibati ərazi nümayəndəliklərinin vəzifəli şəxsləri barəsində cinayət işi başlanıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gündəlik diqqət və qayğısı sayəsində koronavirus infeksiyasının ölkəmizdə yayılmasının qarşısının alınması və onun mənfi təsirlərinin aradan qaldırılması üçün genişmiqyaslı kompleks siyasi, iqtisadi və sosial tədbirlər həyata keçirilir.

Bununla belə təəssüf ki, Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən elan edilmiş xüsusi karantin rejimi qaydalarının müxtəlif yollarla pozulması hallarına rast gəlinməkdədir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, prokurorluq orqanları tərəfindən qeyd olunan qanunsuz hallara qarşı qanunamüvafiq tədbirlər davam etdirilir.

Şirvan, Naftalan şəhər, İmişli və Bərdə Rayon İcra Hakimiyyəti başçılarının inzibati ərazi nümayəndəliklərinin bəzi vəzifəli şəxslərinin bu qəbildən olan qanunazidd hallara yol vermələri barədə şəhər və rayon icra hakimiyyətlərindən rayon prokurorluqlarına daxil olmuş müraciətlərə baxılıb.

Araşdırmalarla Şirvan Şəhər İcra Hakimiyyəti başçısının Hacıqəhrəmanlı qəsəbə inzibati ərazi vahidi üzrə nümayəndəsi Pünhan Mənsimov və 1 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Fəqani Həsənov tərəfindən vəzifə saxtakarlığı edilməklə xüsusi karantin rejimi qaydalarını pozaraq sərbəst hərəkət etmək istəyən şəxslərə qanunsuz olaraq arayışlar verilməsinə əsaslı şübhələr müəyyən olunub.

Naftalan Şəhər İcra Hakimiyyəti başçısının 1 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Asəf Cabbarov tərəfindən də eyni məzmunlu qanun pozuntusuna yol verilib. Belə ki, Asəf Cabbarovun da vəzifə saxtakarlığı etməklə xüsusi karantin rejimi qaydalarını pozaraq sərbəst hərəkət etmək istəyən şəxslərə qanunsuz olaraq arayışlar verməsinə əsaslı şübhələr müəyyən edilib.

Eləcə də İmişli Rayon İcra Hakimiyyəti başçısının Bəhrəmtəpə qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Rafael Həsənovun da vəzifə saxtakarlığı edərək xüsusi karantin rejimi qaydalarını pozaraq sərbəst hərəkət etmək istəyən şəxslərə qanunsuz olaraq arayışlar verməsinə şübhələr üçün əsaslar müəyyən olunub.

Bundan başqa, Bərdə Rayon İcra Hakimiyyəti başçısının Xəsili kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Azad Salmanovun vəzifə səlahiyyətlərindən sui-istifadə edərək rayon daxilində səyyar formada kənd təsərrüfatı məhsullarının satışının həyata keçirilməsinə icazə üçün müraciət etmiş ayrı-ayrı şəxslərə arayışlar təqdim edərkən qanunsuz hərəkətlərə yol verməsinə şübhələr müəyyən edilib.

Qeyd olunan şəxslər müvafiq rayon icra hakimiyyəti başçılarının əmrləri ilə tutduqları vəzifədən azad ediliblər.

Toplanmış materiallar üzrə Şirvan şəhər, Goranboy, İmişli və Bərdə rayon prokurorluqlarında Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işləri başlanıb.

Hazırda həmin işlər üzrə təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bu qəbildən olan qanunazidd hallarla üzləşən vətəndaşlara müraciət edərək "961" nömrəli Çağrı Mərkəzinə məlumat verməlerini xahiş edir.

# YURDUMUZUN BAHAR LİBASI



Foto Fərman BAĞIROVUNDUR


# Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı

## *satınalma sorğusunda iştiraka dəvət edir*

PREDMET: BMT-nin İnkişaf Proqramının layihələri üçün müxtəlif şəhər və rayonlara çatdırılmaq şərti ilə kompüter, çap avadanlıqları və videomüşahidə avadanlığının satın alınması üçün Çərçivə Müqaviləsi.

Öz təklifinizi bu elana əlavə olunan keçiddəki formalara uyğun olaraq hazırlayıb aşağıdakı e-mail ünvanına təqdim etməyiniz xahiş olunur: procurement.aze@undp.org

https://www.az.undp.org/content/azerbaijan/en/home/procurement.html

Təkliflərin təqdim edilməsi üçün son tarix: 11 may 2020-ci il saat 18.00

Hər hansı sualınız olduğu təqdirdə, procurement.aze@undp.org ünvanına yazılı şəkildə müraciət etməyiniz xahiş olunur. Mövzu yerində "Sual. Kompüter, çap avadanlıqları və s." göstərməyiniz tövsiyə edilir.


## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov Mərkəzi Bankın Sədrinin birinci müavini Alim Quliyevə atası

**SƏLİM QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Mərkəzi Bankın Sədrinin birinci müavini Alim Quliyevə atası

**SƏLİM QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7579
Sifariş 1178
Qiyməti 40 qəpik